www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 16 may 2025-ci il Cümə № 84 (8694) Qiyməti 60 qəpik

**Xəbər**

## Bu gün daha beş itkin şəhid dəfn olunacaq

yazısı səh.3-də

**Gündəm**

### İstanbulda gərgin gün



Rusiya-Ukrayna nümayəndələri arasında danışıqlar bir neçə dəfə ertələndi, qarşılıqlı ittihamlar...

yazısı səh.9-da

# ERMƏNİSTAN ORDUSU BATIR - SENSASİON BİLGİLƏR

Düşmən sürətlə silahlansa da, vəziyyətin bərbad olduğunu özləri etiraf edirlər; **erməni müxalifəti:** "Niyə gənclərin bu qədər böyük faizi hərbi xidmətdən yayınır..."



yazısı səh.7-də

### "Paşinyanı iqtidarda Bakı, London və Təl-Əviv saxlayır" iddiası

yazısı səh.4-də

### "Səba"nın yeni sahibi kimdir?

yazısı səh.3-də

### Pakistanın baş nazirindən İlham Əliyevə zəng

yazısı səh.5-də

### İnqilablar üçün ayrılan milyonlar - Bakı onları belə "batırdı"

yazısı səh.8-də

### PKK silahı yerə qoydu, bəs ASALA?

yazısı səh.11-də

### Rusiyanın "5-ci kolon" la bağlı qərarının İmişlidə əks-sədası

yazısı səh.12-də

### XİN-dən AŞ PA-ya görə Strasburqa sərt xəbərdarlıq

yazısı səh.13-də

### Trampın ən yaxın adamı Bakını nişan verdi

yazısı səh.12-də

### Türkiyəli tarixçi: "Papa XIV Leo ermənidir"

yazısı səh.14-də

### Azərbaycandan ABŞ-a "Green Card"la gedənlərin sayı azalır

yazısı səh.10-da

## İranın səfir göndərməsi yubanır - aqreman verilmir?

"İSCA News" agentliyi iddia edib ki, guya bu ləngimə Bakının Tehranın təklif etdiyi namizədi qəbul etməməsi ilə bağlıdır, əslində isə...

yazısı səh.5-də



*Hidayət Orucov:*

### "Mən çox şeylər bilirəm, amma açmadım"

yazısı səh.6-da



İmam Mustafayev

### Qalmaqal baş verən Ağsaqqallar Şurasını Mərkəzi Komitənin katibi yaradıbmış

yazısı səh.3-də



### Köçəryan - Məmmədin, yoxsa Sedrakın oğlu?

yazısı səh.7-də

YENİ MÜSAVAT
N 84 (8694) 16 may 2025

# “Son zəng”in təmtəraqla keçirilməsi qadağan edilib



**“Son zəng” tədbirinin təmtəraqlı keçirilməsi təlimata uyğun olaraq qadağan edilib. Bunu Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktor müavini Vəfa Yaqublu İctimai TV-də yayımlanan “Sabaha saxlamayaq” verilişində qonaq olarkən deyib.**

O bildirib ki, bu, məntiq çərçivəsində keçirilməli bir tədbirdir: “Biz cəmiyyət olaraq öyrənə-öyrənə gedirik. İnanıram ki, valideyn-müəllim assosiasiyasının da vəsaitləri daha yaxşı şeylərə sərf olunmalıdır. Tədbirin təmtərağına yox, onun yadda qalmağına, özününkü olmağına yönəlməlidir”.

Vəfa Yaqublu qeyd edib ki, “Son zəng”də şagird məktəbli formasında olmalıdır. Çünki məktəbli forması mənsubiyyət göstəricisidir: “Bu o deməkdir ki, "mən bu məktəbin bir hissəsiyəm. Bu məktəb də mənim üçündür".

O bildirib ki, uşaqlar “Son zəng” günündə məktəbli forması ilə də sağollaşırlar. Hər bir fəaliyyətin bir mənası olmalıdır:

“Onlarla "Son zəng" tədbirində olmuşam. Bu tədbirlər emosional tədbirdir və uşaqlar öz emosiyalarını, fikirlərini səmimi şəkildə göstərməlidirlər. Məktəb ictimai qurumdur. Burada müxtəlif sosial rifah səviyyəsində olan insanlar təhsil alırlar. Bu cür tədbirlər o qədər ziyalıcasına, həssas qurulmalıdır ki, hər bir uşaq orada özünü komfort hiss etsin".



## Vasif Talıbova məxsus şirkətlər ləğv edilir

**Naxçıvan Muxtar Respublikasında bir zamanlar aktiv fəaliyyət göstərmiş “Gəmiqaya Avtonəqliyyat”, “Avtonax MR” və “Avto GL” şirkətləri ləğv edilir.**

Bu barədə İqtisadiyyat.az xəbər verib.

Məlumata görə, ləğv olunduğunu elan edən şirkətlər kreditorlarına müraciət ünvanlayıb ki, iki ay ərzində tələblərini Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi, ev 34/2 ünvanına bildirə bilərlər.

Xatırladaq ki, “Gəmiqaya Avtonəqliyyat” 2022-ci ildə yaradılıb, nizamnamə kapitalı 1 210 050,14 manatdır. “Avtonax MR” 2023-cü ildə 14 142.26 manat nizamnamə kapitalı ilə, “Avto GL” isə 2023-cü ildə 241937 manat nizamnamə kapitalı ilə yaradılıb.

Şirkətlər bir zamanlar Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin keçmiş sədri Vasif Talıbova məxsus olduğu bildirilən “Gəmiqaya Holdinq”in tabeçiliyində olub.

## Nə qədər Qarabağ veteranı var?



**2025-ci il aprelin 1-nə olan məlumata görə, Azərbaycanda müharibə veteranlarının sayı 184 574 nəfər olub. Onlara ayda 80 manat Prezident təqaüdü verilir.**

Bu barədə Dövlət Statistika Komitəsinin məlumatında deyilir. “Müharibə veteranı” statusu daşlyan şəxslərdən 180 836 nəfər Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak edənlərdir.

3 738 nəfər müharibə veteranı isə başqa ölkələrin ərazisində gedən məhəlli müharibələrdə və hərbi münaqişələrdə hərbi birləşmələrin tərkibində iştirak etmiş şəxslər, keçmiş SSRİ Silahlı Qüvvələrinin, Dövlət Təhlükəsizliyi Komitəsinin, Daxili İşlər Nazirliyinin mütəxəssisləri və müşavirləridir.

Müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin sayı da açıqlanıb - 19 520 nəfər.

## Vüqar Səfərlinin şəriki azadlığa çıxdı



**Ləğv edilmiş Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) sabiq direktoru Vüqar Səfərli ilə birgə məhkum edilmiş “Portos” MMC-nin direktoru Nadir Məmmədov vaxtından əvvəl azadlığa buraxılıb.**

“Qafqazinfo” xəbər verir ki, yerli məhkəmə məhkumun xəstəliyi ilə bağlı belə qərar qəbul edib.

Qərara əsasən, onun qalan 1 il 2 aylıq həbs cəzası şərti hesab edilib, cəzaçəkmə müəssisəsindən azadlığa buraxılıb.

Qeyd edək ki, Vüqar Səfərli və Nadir Məmmədov 2021-ci ilin yanvarında həbs edilib. Vəzifə cinayətlərində təqsirli bilinən V.Səfərli yekun olaraq 10 il 6 ay, N.Məmmədov 5 il 6 ay azadlıqdan məhrum edilib. Bu iş üzrə yalnız adları çəkilən şəxslər həbslə cəzalandırılıb, digərlərinə şərti cəza verilib.

## Azərbaycanda 736 əkiz, 42 üçəm doğulub



**Bu ilin ilk üç ayı ərzində Azərbaycanda 736 əkiz, 42 üçəm doğulub. Məlumata görə, Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 22119 doğulan körpə qeydə alınıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici azalaraq 9,7-dən 8,8-ə düşüb.**

Doğulan körpələr arasında oğlan uşaqlarının xüsusi çəkisi 53,5 faiz, qız uşaqlarının xüsusi çəkisi isə 46,5 faiz olub. Doğulan körpələrdən 736-sı əkiz, 42-si isə üçəm olub.



## Dəniz Əsədova yenə həbs edildi

**Müğənni Dəniz Əsədova həbs edilib.**

D.Əsədova vəkil Asim Abbasovun xüsusi ittiham qaydasında şikayəti əsasında 7 ay azadlıqdan məhrum edilib.

Dəniz Əsədova öz instaqram səhifəsində dəfələrlə vəkil Asim Abbasovu təhqir edib, onun fotolarını icazəsiz paylaşıb. Bu səbəbdən vəkil xüsusi ittiham qaydasında məhkəməyə müraciət edib, müğənninin təhqir və böhtan cinayətlərində təqsirli bilinərək ən ağır formada cəzalandırılmasını istəyib.

Xatırladaq ki, D.Əsədova bundan əvvəl də eyni ittihamla müxtəlif şəxslər - müğənni Cabbar Musayev və digərləri tərəfindən məhkəməyə verilmişdi. Bundan başqa, müğənninin şikayəti əsasında 2023-cü ildə Sabunçu rayonu 21 saylı Birləşmiş Şəhər Xəstəxanasının baş həkimi Rauf İsfəndiyarov həbs edilib. Həkim ifaçıya qarşı 627 min manatlıq dələduzluqda ittiham olunub, daha sonra ev dustaqlığına buraxılıb.

## “Azdrama”nın bədii rəhbərini hədələdilər



**“Sənə son 24 saat vaxt veririk! Əgər bu müddət ərzində çıxıb üzr istəməsən, həmin hadisəni ictimaiyyətə açıqlayacağam!” Bakupost.az xəbər verir ki, bu sözləri sosial media hesabında Əməkdar artist Mehriban Xanlarova yazıb. O, Akademik Milli Dram Teatrının bədii rəhbəri Mehriban Ələkbərzadəyə xəbərdarlıq edib:**

“Mehriban Ələkbərzadə, artıq bir aydır səni səssiz və təmkinlə gözləyirik ki, vicdanınla baş-başa qalacaq, cəsarətini toplayaraq şahid qızı Məsmə Aslanqızından üzr istəyəcəksən. Nə üçün üzr istəməli olduğunu sən çox yaxşı bilirsən. Bu susqunluq artıq qəbuledilməzdir! Sənə son 24 saat vaxt veririk! Əgər bu müddət ərzində çıxıb üzr istəməsən, həmin hadisəni ictimaiyyətə açıqlayacağam!”

Xatırladaq ki, Akademik Milli Dram Teatrının bədii rəhbəri Mehriban Ələkbərzadə Məsmə Aslanqızına “Az, 20 Yanvar var? Qurtardı 20 Yanvar söhbəti! 20 Yanvar şəhidləri dəbdə deyil!” sözlərini deyib.

Məsələyə münasibət öyrənmək üçün teatrla əlaqə saxladıq. Bildirildi ki, bu barədə hər hansı açıqlama olmayacaq.

## Xalq və Əməkdar fəxri adı olanların sayı

**2025-ci il aprelin 1-nə olan məlumata görə, 401 500 nəfərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü təyin olunub. Prezident təqaüdü təyin olunmuş şəxslərin 247 nəfəri Xalq, 4495 nəfəri Əməkdar fəxri adı daşıyanlardır.**

Rəsmi məlumata görə, Xalq fəxri adına görə 200 manat, Əməkdar fəxri adına görə 150 manat aylıq Prezident təqaüdü verilir.




## İki banka xəbərdarlıq

**Azərbaycan Mərkəzi Bankı (AMB) “Azərbaycan Sənaye Bankı” və “Bank Avrasiya” ASC-lərə icrası məcburi sərəncam verib. Məlumata görə, “Banklarda korporativ idarəetmə Standartları”nın 4.8-ci bəndinin tələbinin pozulmasına görə “Banklar haqqında” Azərbaycan Respublikası Qanununun 47.1-ci maddəsinin tələbləri rəhbər tutularaq, Mərkəzi Bank tərəfindən “Bank Avrasiya” ASC və “Azərbaycan Sənaye Bankı” ASC-yə müvafiq pozuntunun qısa müddətdə aradan qaldırılması və qeyd olunan halların gələcəkdə təkrarlanmaması üçün daxili prosedurların təkmilləşdirilməsi ilə bağlı icrası məcburi sərəncam verilib.**




## 467 nəfər Azərbaycandan gedib

**Bu ilin yanvar-mart ayları ərzində Azərbaycana daimi yaşamaq üçün 773 nəfər gəlib.**

Bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb.

Bildirilib ki, 2025-ci ilin yanvar-mart ayları ərzində Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən daimi yaşamaq üçün Azərbaycana 773 nəfər gələn, Azərbaycandan isə 467 nəfər gedən qeydə alınıb, ölkə üzrə miqrasiya saldosu müsbət 306 nəfər təşkil edib.

## İnternet televiziyasının rəhbərinin cəzası azaldıldı

**Hədə-qorxu ilə pul tələb etməkdə təqsirli bilinən Kanal-11 internet televiziyasının rəhbəri Teymur Kərimovun cəzası dəyişdirilib. Bakı Apelyasiya Məhkəməsi onun vəkili tərəfindən verilmiş şikayəti qismən təmin edib.**

T.Kərimovun cəzası 8 ildən 7 ilə endirilib.

Qeyd edək ki, bu iş üzrə İstək Totiyeva da cinayət məsuliyyətinə cəlb edilib. Totiyeva kanal rəhbəri Kərimovla əlbir olaraq eyni cinayəti törətməkdə təqsirləndirilirdi. Onun haqqında şərti cəza hökmü qüvvədə qalıb.

**İmişli rayonunda keçirilmiş 9 may tədbirində keçmiş SSRİ bayrağının qaldırılması və iştirakçıların sinəsinə Rusiya imperiyasının rəmzi olan “Georgi lenti”ni taxması ətrafında müzakirələr davam edir. Bəllidir ki, ictimai qınağın artdığını nəzərə alıb tədbirin təşkilatçısı - rayon Ağsaqqallar Şurasının sədri Saleh Səmədovu vəzifədən azad ediblər. Azərbaycan Ağsaqqallar Şurası bu gün onun əvəzinə Vahid Tağıyevi İmişli rayon Ağsaqqallar Şurasının sədri seçib. Amma məlum olub ki, Vahid Tağıyev də Sarıxanlı kəndindəki SSRİ bayrağının fonunda keçirilmiş məlum tədbirin təşkilatçılarından olub.**



# Mərkəzi Komitə katibinin yaratdığı Ağsaqqallar Şurası - indi işi nə?

## İmam Mustafayevdən Eldar Quliyevədək..; **Tural Abbaslı:** “Onların fəaliyyəti həqiqətən ”ağsaqqallıq" anlayışına uyğundurmu, doğrudanmı vətənin, millətin bu günü və gələcəyi barədə düşünürlər?"

Ağsaqqallar Şurası 1989-cu ildə Azərbaycan SSR Kommunist Partiyası MK-nın birinci katibi İmam Mustafayev tərəfindən təsis olunub. 1990-cı ildə dövlət qeydiyyatından keçərək rəsmi fəaliyyətə başlayıb. 1998-ci ildə İmam Mustafayevin vəfatından sonra akademik Budaq Budaqov 1998-2012-ci illərdə sədrlik edib. 2012-2020-ci illərdə Fəttah Heydərov rəhbərlik edib. 2020-ci ildə Eldar Quliyev qurultayda sədr seçilib.

“Biz 5-10 gündən sonra İmişli rayon Ağsaqqallar Şurasında seçki keçirəcəyik. Vahid Tağıyev müvəqqəti təyin olunub. Biz hətta istəyirik ki, orada şura üzvlərinin tərkibini də dəyişək”.

Bunu Unikal.org-a açıqlamasında Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Eldar Quliyev deyib. Deputat sayt əməkdaşının “Vahid Tağıyevin də tədbir zamanı sinəsində "Georgi lenti" olub" sözlərinə belə cavab verib: “Onların hamısında o lent olub. Ağılları ora qədər işləyir. Biz növbəti həftə orada seçki keçirib, onları dəyişəcəyik. Mən axtarıram ki, həmin "Georgi lenti"ni bunlara kim verib. Biz fərziyyələrlə yaşaya bilmərik. Onlar bu nöqsanı törədiblər. Biz bu günaha görə onları cəzalandırmışıq. Biz Salehi həm sədrlikdən, həm də şuradan çıxarmışıq. Digərləri ilə bağlı da tədbir görəcəyik. O, nə qədər imkanlı olsa da, biz icazə verə bilmərik ki, Azərbaycan bayrağının yanında SSRİ bayrağı olsun".

Qeyd edək ki, bu qurum yaşlı nəslin həyat təcrübəsinin, dövlətçiliyə, milli kimliyə və vətənə bağlılıq hissinin gənc nəslə çatdırılması, ailə dəyərlərinin təbliği, gənclərin tərbiyəsi, milli-mənəvi ideologiyanın qorunması və yayılması sahəsində maarifləndirici tədbirlərin görülməsi, sosial proseslərə münasibət bildirərək bəzən dövlət strukturlarına və ictimaiyyətə rəy təqdim etmək, ictimai rəyi yönləndirmək, milli bayramların, mərasimlərin, dini və qeyri-dini ənənələrin yaşadılması, regionlarda milli-mədəni irsin qorunması üçün təşəbbüslərlə çıxış etməsi üçün yaradılıb. Bəs bütün bunlar qurumun fəaliyyətində öz əksini tapa bilirmi? Bəziləri hesab edir ki, Ağsaqqallar Şurası bir çox hallarda real fəaliyyət göstərmir, yalnız formal bəyanatlarla gündəmdə qalır və bu baxımdan qurumun ümumiyyətlə ləğv edilməsi daha uyğundur.



**Millət vəkili Fazil Mustafa mövzu ilə bağlı “Yeni Müsavat”a danışıb:** “Məndə olan məlumata görə, orada abidəni təmir ediblər və həmin abidənin açılışında iştirak ediblər. Bu, əvvəldən qoyulmuş bir abidədir. Yerli Ağsaqqallar Şurası müəyyən vəsait ayırıb onu təmir edib ki, oradakı insanların müəyyən tələbləri qarşılansın. Bundan başqa, orada hansısa xüsusi bir çağırış da olmayıb. Sadəcə, hansısa simvol sovet dövrünün bir hadisəsinin qeyd olunması baxımından orada yanlış olaraq yerləşdirilib. Elə 9 mayın özü də sovet nostalgiyasının dirilməsi deməkdir. Yəni ümumilikdə bizim bu günü qeyd etməyimizin özü də sovet duyğularının müəyyən dərəcədə xatırlanması anlamına gəlir. Halbuki bizim öz qələbəmiz, Şuşanın işğaldan azad olunması günü - Zəfər bayramımız var. O baxımdan, məsələlərə dərindən yanaşsaq, görərik ki, qeyd etdiyimiz bəzi bayramların da müəyyən dərəcədə problematik tərəfləri var. Bu baxımdan məsələyə, məncə, bir qədər fərqli, daha çox o kontekstdən yanaşmaq lazımdır ki, həmin bölgələrdə xurafatın və cəhalətin inkişafı baxımından bu hadisələr necə qiymətləndirilməlidir. Əsas məsələ də odur ki, bunun qarşısının alınması üzərində düşünülməlidir”.

**AĞ Partiya sədri Tural Abbaslı qeyd edib ki, Azərbaycanda bir çox qurumlar var ki, təməli sovet dövründə qoyulub və hələ də bəziləri fəaliyyətini davam etdirir:** “Burada biz daha çox nəyə diqqət yetirməliyik? Bu qurumlar bizim inkişafımıza, müasir dövrdəki tərəqqimizə, dövlət və millət olaraq daha yaxşı istiqamətdə irəliləməyimizə xidmət edir, yoxsa etmir? Hesab edirəm ki, qurumları qiymətləndirərkən təkcə onların sovet dövründə və ya müasir zamanda yaradılmasına deyil, həm də onların indiki dövrdəki faydalılığına baxmaq lazımdır. Məsələn, müasir dövrdə yaradılan çoxsaylı strukturlar var ki, onların ləğvi daha məqsədəuyğun olardı. Azərbaycan xalqı tarix boyu ağsaqqalı - böyük, təcrübəli insanı həmişə dəyərli bilib. Məhkəmələr olmamışdan əvvəl hər bölgədə bir ağsaqqal olub və həmin şəxslərin ədalətin bərpasında sözləri həlledici olub, söz sahibi sayılıblar. Əslində belə baxanda, "Ağsaqqallar Şurası" adlı bir qurumun olması yaxşıdır, zərərli deyil. Çünki bir daha vurğulayıram ki, bu, tövsiyə xarakterli bir qurumdur. Eyni zamanda adət-ənənələrimizin, keçmişimizin qorunması və gələcəyə ötürülməsi baxımından da ağsaqqallar institutunun mövcudluğu vacibdir.

Lakin sual budur: bugünkü Ağsaqqallar Şurası bu dediyimiz meyarlara cavab verirmi? Onların fəaliyyəti həqiqətən “ağsaqqallıq” anlayışına uyğundurmu? Onlar doğrudanmı vətənin, millətin bu günü və gələcəyi barədə düşünürlər? Onların dövlətə və millətə canı yanırmı? Yoxsa bu şurada təmsil olunanlar mövqe və maraqları naminə fəaliyyət göstərirlər, şəxsi rifahlarını və bizneslərini yaxşılaşdırmaq üçün bu qurumdan istifadə edirlər? Məncə, bu, həmin qurumda təmsil olunan şəxslərin problemidir. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, rəhbərlikdən tutmuş digər üzvlərə qədər analiz etsək görərik ki, bir çoxları daha çox şəxsi maraqlarına xidmət edir, nəinki ağsaqqallıq prinsipinə.

Ona görə də qurum qalmalıdır, amma orada ciddi islahatlar aparılmalıdır. Mümkündür ki, nizamnaməsində dəyişiklik edilsin. Ağsaqqallar Şurası siyasi mövqe nümayiş etdirməməlidir. Onlar gənclərlə işləməli, gənclərə tövsiyələr verməli, cəmiyyətdəki neqativ hallarla öz imkanları çərçivəsində mübarizə aparmalıdırlar".

❑ **Xalidə GƏRAY,**
**“Yeni Müsavat”**

# Bu gün daha beş itkin şəhid dəfn olunacaq

## Birinci Qarabağ müharibəsində itkin düşən beş nəfərin şəxsiyyəti müəyyənləşdirilib



**Birinci Qarabağ müharibəsində itkin düşən və şəxsiyyətləri müəyyənləşdirilən daha beş şəhid dəfn olunacaq. Bu barədə Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasından bildirilib.**

Qeyd olunub ki, mayın 16-da hərbçilər Yusif Mirzəli oğlu Məmmədov Sumqayıt şəhərindəki Şəhidlər xiyabanında, Miriş Məhəmməd oğlu Rüstəmov Ağcabədi şəhərindəki Şəhidlər xiyabanında, Muxtar Bayram oğlu Məmmədov Şərur şəhərindəki Şəhidlər xiyabanında, Abuzər Tənzil oğlu Abbasov Zərdab rayonunun Yuxarı Seyidlər kənd qəbiristanlığında, Elşən İsaməddin oğlu Ərzumanov Quba şəhərindəki Şəhidlər xiyabanında dəfn ediləcək.

# Ramil Usubov Okay Memişlə görüşdü



**Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının (TŞ) katibi, general-polkovnik Ramil Usubov ölkəmizdə səfərdə olan Türkiyə Respublikası Milli Təhlükəsizlik Şurasının Baş katibi Okay Memişin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüşdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev də iştirak edib.**

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

# “Səba”nın yeni sahibi kimdir?

SƏBA

**“Səba” ASC-nin nizamnamə kapitalı azaldılıb və qanuni təmsilçisi dəyişib. İqtisadiyyat.az xəbər verir ki, şirkət nizamnamə kapitalını 4,8 milyon manatdan 3,6 milyon manata endirib. Beləliklə, son aylar ərzində “Səba”nın nizamnamə kapitalından 1,2 milyon manata yaxın vəsait geri götürülüb. Eyni zamanda ASC-nin qanuni təmsilçisi Elçin Mehdiyev vəzifəsindən azad edilib və onun yerinə Vüqar Baloğlanov təyin olunub.**

Məlumat üçün bildirək ki, “Səba”nın dövlət qarşısında külli miqdarda vergi borcu da yaranıb və hazırda bu borcun miqdarı 432 268,60 manat təşkil edir.

Bu günlərdə “Səba” iyunun 30-u üçün səhmdarlarının növbəti ümumi yığıncağını çağırıb. Ümumi yığıncağın gündəliyinə bir sıra məsələ daxil edilib. Bunlar “Səba”nın ötən il üçün illik maliyyə hesabatlarının müzakirəsi və təsdiqi, “Səba”nın təsisçiliyi ilə yaradılmış törəmə cəmiyyətlərin nizamnamə kapitalındakı payların və həmin törəmə cəmiyyətlərin təsisçiliyi ilə yaradılmış hüquqi şəxslərin nizamnamə kapitalındakı payların satılması, həmin hüquqi şəxslər olan cəmiyyətlərin əmlaklarının əsas vəsaitlərinin və digər aktivlərinin satılması məsələləridir.

Xatırladaq ki, “Səba” 1997-ci ildə dövlət qeydiyyatına alınıb.

YENİ MÜSAVAT
N 84 (8694) 16 may 2025

## İlham Əliyev Albaniyada

**Azərbaycan Prezidenti İlham Əliyev Albaniyanın baş naziri Edi Ramanın və Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın dəvəti ilə “Avropa Siyasi Birliyi”nin 6-cı Zirvə toplantısında iştirak etmək üçün Tiranaya işgüzar səfərə gedib.**

Tirana şəhərinin Beynəlxalq Hava Limanında dövlət başçısını Albaniya baş nazirinin müavini, infrastruktur və energetika naziri Belinda Balluku və digər rəsmi şəxslər qarşılayıb.

## Baş nazir Çin səfiri ilə görüşdü

**Azərbaycanın baş naziri Əli Əsədov Çin Xalq Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Lu Mey ilə görüşüb. Bu barədə Nazirlər Kabinetindən məlumat verilib.**

Bildirilib ki, görüşdə Azərbaycan Prezidenti İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Szinpinin birgə səyləri nəticəsində Azərbaycan-Çin münasibətlərinin dinamik inkişafı məmnunluqla vurğulanıb.

Prezident İlham Əliyevin Çinə son dövlət səfərinin əhəmiyyətinə toxunulub. Dövlət başçılarının imzaladığı “Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanat”ın iki ölkə arasındakı münasibətləri daha yüksək səviyyəyə qaldırdığı qeyd edilib.

Görüşdə Azərbaycanla Çin arasında ticarət-iqtisadi və humanitar əməkdaşlıq imkanları, həmçinin də qarşılıqlı maraq doğuran müxtəlif sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olunub.

## Trampı səfərdə azərbaycanlı iş adamı müşayiət edib

**ABŞ Prezidenti Donald Trampın üç ərəb ölkəsinə səfərində onu müşayiət edənlər arasında azərbaycanlı iş adamı Dara Xosroşahi də olub. Axar.az xəbər verir ki, “Uber” şirkətinin baş direktoru olan Xosroşahi Trampın əksər görüşləri və rəsmi ziyafətlərində iştirak edib.**

Qeyd edək ki, 56 yaşlı Dara Xosroşahinin ailəsi Təbriz yaxınlığında yerləşən Xosroşah şəhərindəndir. Onlar İran və Yaxın Şərqin ən böyük şirniyyat və şokolad istehsalçısı olan “Minu İndustrial” Qrupunun qurucusu və rəhbəri olublar.

Xosroşahinin ailəsi İranda inqilabdan sonra Fransaya, oradan isə ABŞ-a mühacirət edib.

Hazırda ABŞ-ın ən tanınmış iş adamlarından olan D.Xosroşahi Donald Trampın seçki kampaniyasına 1 milyon dollar ianə etmişdi.

# “Paşinyanı iqtidarda Bakı, London və Təl-Əviv saxlayır” iddiası

## Üç mərkəzin Ermənistandakı hakimiyyətin ömrünün uzanmasında hansı siyasi və strateji maraqları ola bilər?



**Ermənistanda qarşılıqlı “casus axtarışı” davam edir. Parlamentin spikeri Alen Simonyanın ikinci prezident Robert Köçəryanı “Rusiya casusu” adlandırmasından sonra “Hayastan” fraksiyasının lideri Seyran Ohanyan ona parlamentdə cavab verib. Ohanyan deyib ki, Simonyan və təmsil olunduğu hökumət Azərbaycan və Türkiyənin casusudur".**

“Ermənistanın səsi” radiosu bu mövzuda yazır ki, Paşinyan artıq Qərbin İrəvandakı əsas fiquru sayılmır: “Görünür, rəsmi Vaşinqton Mirzoyan və Blinkenin imzaladığı strateji sazişi unudub. Ohanyan yardım göstərmək, o cümlədən dövlət sərhədinin mühafizəsi üçün bir qrup amerikalı mütəxəssisin İrəvana gəlməsini nəzərdə tutur. Bu qrup hara getdi?”

O da vurğulanır ki, Rusiya çətin erməni baş naziri indiyədək etdikləri siyasi qələtlərə görə bağışlasın: “Lakin gəlin nəticə çıxarmağa tələsməyək. Baş nazir yenidən Putinin etimadını qazanarsa, Paşinyan 2026-cı il parlament seçkilərində Rusiyanın müqaviməti ilə üzləşməyəcəyinə ümid edə bilər”.

Təhlildə həmçinin iddia olunur ki, indiki geosiyasi vəziyyətdə 2026-cı il seçkilərində Paşinyanın yenidən baş nazir olmasında yalnız Türkiyə və Azərbaycan maraqlıdır. Ümumiyyətlə, bu mövzuda bildirilir ki, guya İsrail də Paşinyanın hakimiyyətdə qalmasında maraqlıdır. “Bu, təbiidir, çünki indi Paşinyana alternativ Robert Köçəryandır. Köçəryan hakimiyyətə gəlsə, bu, İrəvanla Tehran arasında yaxşı münasibətlərin olacağı anlamına gələ bilər və bu, artıq Paşinyana sərfəli deyil" - təhlildə deyilir.

Bundan başqa, Paşinyanın hakimiyyətdə qalmasında maraqlı olan növbəti tərəfin Böyük Britaniya olduğu haqda da zaman-zaman iddialar yayılıb. Ermənistanda ən böyük resurslara malik olan Londondur. Əslində bu gün Londonun Rusiya ilə gərgin münasibətləri var. Amma Rusiyanın Cənubi Qafqazda ən yaxın müttəfiqi elə Ermənistandır. Ona görə də bu ölkələri Paşinyanın hakimiyyətdə qalmasında ən maraqlısı hesab etmək olar.

Azərbaycanlı mütəxəssislər necə düşünürlər? Üç paytaxtın Paşinyan iqtidarının ömrünün uzanmasında hansı siyasi və strateji maraqları var? Rusiyanın Ermənistanda siyasi çevriliş üçün təsir elementləri qalıbmı?

**Siyasi ekspert Oqtay Qasımov** “Yeni Müsavat”a şərhində deyib ki, Ermənistan müxalifətində və cəmiyyətində bu ölkənin regiondakı, dünyadakı rolu həddən artıq şişirdilmiş təqdim edilir: “Elə təsəvvür yaradılır ki, dünya siyasətinin mərkəzi Ermənistandır və bu ölkədə siyasi proseslərə geopolitik hadisələrə təsir edir. Bu yanaşmalar uydurmadır və müştəbehlikdən irəli gəlir”.

**O ki qaldı Paşinyanın iqtidarda qalmasına, O.Qasımovun fikrincə, burada müxtəlif qüvvələrin fərqli maraqları ola bilər:** “Əvvəla, Ermənistanda revanşistlərin iqtidara qayıdacağı təqdirdə bu ölkənin İranla daha da yaxınlaşacağı haqda proqnozlar kökündən yanlışdır. Ermənistanın İranla münasibətlərinin yaxşılaşması İsrailin regiondakı maraqlarına mənfi təsir etməyəcək. Çünki İsrailin bölgədə Azərbaycanla çox yaxın əlaqələri var, Gürcüstanla da yaxşı münasibətlər qurublar, Ermənistan İsrail üçün maraqlı olsaydı, Tel-Əviv İrəvanla da dərin əlaqələr qurardı”. Ekspert hesab edir ki, İsrail Ermənistanda antisemit əhval-ruhiyyə olduğunu bilir.

**Analitikə görə, Türkiyə və Azərbaycan üçün Ermənistanda rasional iqtidarın olması vacibdir:** “Deməzdim ki, Paşinyan praqmatik və rasional siyasətçidir. Həmin hökumət başçısıdır ki, hakimiyyətə gələn kimi danışıqları pozan mövqe sərgilədi, yeni ərazilər, yeni müharibə haqda bəyanatlar verdi. Sadəcə, Azərbaycanın gücü onun planlarını pozdu, Ordumuzun qəhrəmanlığı hesabına Ermənistan məğlub edildi, suverenliyimiz təmin edildi və Paşinyan da qarşısındakı qüvvənin potensialına bələd oldu. Ona görə siyasətində dəyişiklik etməyə məcbur qaldı. Odur ki, indi daha praqmatik və rasional siyasət yürütməyə məhkumdur”.

**O.Qasımov hesab edir ki, bu səbəbdən baş nazir cəmiyyətdə “real Ermənistan” ideyasını təbliğ edir:** “Paşinyan anlayır ki, bu ideya reallaşmasa və utopik fikirlər qüvvədə saxlanacaqsa, Azərbaycanla sülh yox, savaş yolu seçiləcəksə, bugünkü Ermənistanın xəritəsi ciddi şəkildə dəyişəcək, 1920-ci illərin xəritəsinə qayıtmalı olacaqlar. O baxımdan həmin ideyanı irəli sürüb. Hakimiyyətə iddialı digər qüvvələr də bu reallığı dərk edir. Onlar da, Paşinyan da bilir ki, Türkiyə və Azərbaycanla münasibətlər normallaşmadan bölgədə yaşamaq çətin olacaq. Ermənistanda kimin hakimiyyətdə olmasına baxmadan, Azərbaycan irəli sürdüyü tələblərin yerinə yetirilməsini istəyəcək”.

**Nəhayət, Britaniyanın Paşinyanın iqtidarda qalması marağına gəlincə, ekspertin sözlərinə görə, London və digər dövlətlər Ermənistanda normal hakimiyyətin olmasında maraqlıdır:** “Elə bir siyasi qüvvə ölkəni idarə etməlidir ki, qonşularla normal əlaqələr saxlasın. Ermənistanda elə fikir var ki, Britaniya onun əleyhinədir. Əslində səhv düşüncədir. Biz Britaniya kəşfiyyat şefinin də, nümayəndə heyətinin də İrəvana səfərini xatırlayırıq, iki dövlət arasında normal münasibətlər mövcuddur”.

**O.Qasımov qeyd edib ki, sadəcə, bp-nin Azərbaycan neft sənayesində fəaliyyəti Ermənistanda bir rəy formalaşdırıb:** “Guya London İrəvana qarşıdır. Həmçinin Britaniya Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib, bu da Ermənistanda yanlış başa düşülüb. Yeni ermənilərdən nə zaman beynəlxalq hüquqa uyğun davranış istənilirsə, cəmiyyət o ölkələri düşmən obrazında görür. Eyni fikri Rusiya haqda da söyləmək olar. Son 5 ildə ermənilər düşünürlər ki, İkinci Qarabağ müharibəsində Rusiya ordusu onların yerinə döyüşməliydi, hərtərəfli dəstək verməliydi. O baxımdan səslənən iddiaları bölüşmürəm və hesab edirəm ki, Ermənistanda daxili auditoriyaya hesablanmış tezislər tirajlanır”.

❑ **Emil SALAMOĞLU, “Yeni Müsavat”**

# İranın Azərbaycana səfir göndərməsi yubanır - aqreman verilmir?

## "ISCA News" agentliyi iddia edib ki, guya bu ləngimə Bakının Tehranın təklif etdiyi namizədi qəbul etməməsi ilə bağlıdır, əslində isə...



**İran və Azərbaycan arasında aylarla davam edən danışıqlara baxmayaraq, bu ölkənin Bakıdakı səfirliyinə hələ də səfir təyin edilməyib. İran İslam Respublikasının Azərbaycandakı son səfiri Seyid Abbas Musəvi 2020-ci ildən İranın Bakıdakı diplomatik korpusuna rəhbərlik edirdi. O, səfir vəzifəsindən əvvəl İran Xarici İşlər Nazirliyinin sözçüsü olub. Abbas Musəvinin Bakıya gəlişindən sonra İran və Azərbaycan arasında münasibətlərdə irəliləyiş nəzərə çarpmayıb, əksinə, təmaslar daha da gərginləşib.**

Onun diplomatik missiyası hələ 2023-cü ilin yayında başa çatmışdı. Ancaq ondan tələb olunub ki, münasibətlər normallaşana qədər və Azərbaycanın Tehrandakı səfirliyi fəaliyyətini bərpa edənədək öz fəaliyyətini davam etdirsin. Ötən ilin martında İranın dövlət xəbər agentliyi "Tasnim" ölkənin Azərbaycandakı səfiri Abbas Musəvini Baku TV-yə verdiyi müsahibədən sonra istefaya çağırmışdı. Agentlik bu çağırışı edərkən, jurnalistin diplomatik nümayəndəlikdə "uyğun olmayan geyim"lə göründüyünü əsas gətirmişdi.

"Tasnim" xanım jurnalistin hicabsız geyimini "İran İslam Respublikasının rəsmi mövqeyinə təhqir" adlandırmış və səfir Abbas Musəvini istefa verməyə çağırmışdı. Artıq bir neçə aydır ki, səfir Bakını tərk edib, amma yeni təyinat yubanır.

İranın "ISCA News" agentliyi bu yaxınlarda iddia edib ki, yeni səfirin göndərilməməsi ətrafında problem Azərbaycan hökumətinin İranın təklif etdiyi namizədi qəbul etməməsi ilə bağlıdır. "Bu məsələ tezliklə həllini tapmalıdır. İranın Azərbaycandakı mümkün səfiri kimi Mədəniyyət və Kommunikasiya Təşkilatının sabiq rəhbəri və hazırda Bosniya və Herseqovinadakı səfir Əbuzər İbrahimi Türkmanın adı çəkilir", - deyə sayt qeyd edib.

1961-ci il Vyana Konvensiyasına əsasən, səfir təyin edilməsi onu göndərən ölkənin səlahiyyətində olan məsələdir və öz istədiyi şəxsin namizədliyini irəli sürə bilər. Lakin praktikada beynəlxalq nəzakət qaydalarına riayət olunması nəzərə alınır və səfir təyin etmək istəyən ölkə elə şəxsin namizədliyini irəli sürməlidir ki, qarşı tərəf ona aqreman versin. Aqreman verilməməsi isə belə olur ki, təyin edən ölkəyə imtina barədə heç nə deyilmir, sadəcə olaraq, müəyyən müddət razılıq verilmir və bu, imtina kimi başa düşülür.

Təyin edən ölkə belə bir imtina cavabı ilə üzləşmək istəmirsə, elə bir şəxsin namizədliyini irəli sürməlidir ki, göndərildiyi ölkənin ona qarşı heç bir narazılığı olmasın və səfir kimi qəbul etməyə razılıq versin.

**"İranın Azərbaycana səfir təyinatı prosesi son mərhələdədir".**

**Bu barədə isə İran Xarici İşlər Nazirliyinin sözçüsü İsmayıl Beqai İran mediasına məlumat verib.** "Azərbaycan Respublikası ilə münasibətlərin normallaşması prosesini nəzərə alaraq, lazımi addımlar atılıb və səfirin seçilməsi prosesi son mərhələdədir: "Azərbaycan Respublikası ilə münasibətlərimiz həmişə normal və dostluq çərçivəsində olub".

Təyinatın bu qədər yubadılması münasibətlərdə indiyə qədər olan problemlərdən qaynaqlanır, yoxsa texniki məsələdir? Pezeşkianın səfərindən sonra İran-Azərbaycan münasibətlərində yumşalma müşahidə olunur. İran səfirinin göndərilməsi yaxın vaxtlarda reallaşacaqmı?

**"Alyans" Araşdırmalar Mərkəzinin rəhbəri Abutalıb Səmədov "Yeni Müsavat"a bildirdi ki, İranın Azərbaycandakı səfirinin təyin olunması artıq bir neçə aydır yubanır**: "Məsud Pezeşkianın Azərbaycana səfəri ərəfəsində də səfirin təyinatının ləngiməsinin texniki məsələlərlə bağlı olduğu bəyan edilirdi. Eyni bəyanatlar indi də verilir. Bu texniki məsələlər nədən ibarətdir? Həqiqətən də səfirin təyinatının ləngiməsində bu gün başqa səbəblər yoxdur, texniki prosedur səbəblər üzündən təyinat ləngiyir. Diplomatik münasibətlər haqqında Vyana Konvensiyası müəyyən eləyir ki, bir ölkənin digər ölkəyə səfir təyin etməsi üçün əvvəlcə səfir təyin olunacaq ölkəyə müraciət olunur, namizədin kim olacağı bildirilir və bu ölkənin razılığı istənilir. Bu razılıq aqreman adlanır. Səfir təyin olunacaq ölkə araşdırmalar aparır, təyin olunacaq səfirin tərcümeyi-halını, fəaliyyətini və digər məsələləri araşdırdıqdan sonra ya razılıq verir, yaxud etiraz edir. Razılıq verildikdən sonra həmin şəxsin səfir təyin olunması barədə növbəti addımlar atılır. İran tərəfinin iddiasına görə, bundan əvvəl Azərbaycanda səfir təyin olunmağa göstərilən namizəd aqreman ala bilməyib. Azərbaycan həmin namizədə etiraz eləyib. Namizədin kimliyi barədə təbiidir ki, məlumat yoxdur. İndiki şəraitdə növbəti namizəd İranın Bosniya və Hersoqovinadakı səfiri Əbülfəz İbrahimi Türkmən müəyyən olunub və namizədin adının elan olunması o deməkdir ki, artıq bu proses sona çatmaqdadır. Ola bilsin ilkin razılaşma da var. Əks halda, ad açıqlanmazdı. Yəqin ki, yaxın vaxtlarda İranın Azərbaycandakı səfiri təyin olunacaq".

**Ekspert vurğuladı ki, aqreman alınması prosesi çox mühüm prosesdir. Çünki səfirlərin əsas işi iki ölkə arasında dostluq münasibətlərinin yaranması istiqamətində fəaliyyət göstərməkdir:** "Səfirin fəaliyyətinin uğurlu olması üçün lazımdır ki, təyin olunacağı ölkə ilə onun arasında heç bir problem olmasın, onun fəaliyyətində, bəyanatlarında təyin olunacağı ölkəni narahat edən, qane etməyən məqamlar olmasın. İran Prezidentinin Azərbaycana uğurlu səfərindən sonra yəqin ki, bu proses sürətləndirilib və yaxın vaxtlarda bu texniki məsələlər tamamilə həll olunduqdan sonra biz İranın Azərbaycandakı səfirinin tam fəaliyyətə başlamasının şahidi olacağıq. İndiki şəraitdə bu prosesin yubadılması təbiidir ki, dövlətlərimizin maraqlarına qətiyyən xidmət eləmir".

**Siyasi şərhçi Aydın Quliyev bildirdi ki, İranın Azərbaycana yeni səfir təyinatının gecikməsi bir siyasi fakt olaraq ortadadır**: "Bu yalnız hansısa xüsusiyyətlərə malik diplomat kadrın seçilməsi zərurəti ilə tam şəkildə bağlı deyil. İran çoxəsrlik dövlətçilik tarixi olan ölkədir. Bu ölkədə diplomat hazırlıqlarına xüsusi prinsiplərlə və meyarlarla yanaşıldığını bilirik. Təbii ki, oturuşmuş bir dövlət olaraq İran diplomatiyasında hər xüsusiyyətlərə və hər ölkədə hər cür şəraitdə işləməyə qadir diplomat kadrların yetişdirildiyinə şübhə yoxdur. Bu nöqteyi-nəzərdən İranın Azərbaycana yeni səfir göndərməsinin hansısa kadrın axtarışı ilə bağlı olduğunu düşünmürəm. İstənilən vaxt belə bir kadrı tapıb ortaya çıxarmaq və ona Azərbaycanda necə işləməklə bağlı təlimatı vermək mümkündür. Məncə, İran Azərbaycanla hələlik hansı səviyyələrdə və hansı istiqamətlərdə daha üstün siyasət aparacağını müəyyənləşdirməyib. Konkret desək, İranın hansı Azərbaycanla hansı kursda siyasət aparacağı, görünür, hələ Tehranda tam dəqiqləşməyib. Ona görə də yeni səfirə hansı təlimatın veriləcəyi də qeyri-müəyyəndir. Digər tərəfdən, İran-Azərbaycan münasibətlərində hələ aydınlaşmamış, hələ həll olunmamış məsələlər var. Xüsusilə Azərbaycanın Tehrandakı səfirliyinə qarşı törədilmiş terror aktı və onun arxasında dayanan bütün nüanslar hələ tam aydınlaşdırılmayıb. Bəlkə də İran üçün aydındır, amma bununla bağlı Azərbaycana aydın mesajlar verilməyib. Azərbaycan da bu kimi məsələlərə xüsusi önəm verir. Səfir təyinatı məsələsində bu məqam da müəyyən təsirini göstərir".

❑ Etìbar SEYİDAĞA,
"Yenì Müsavat"



# Pakistanın baş nazirindən İlham Əliyevə zəng

## Məhəmməd Şahbaz Şərif baş vermiş böhran zamanı Azərbaycanın göstərdiyi diplomatik, siyasi dəstəyə və həmrəyliyə görə təşəkkür edib

**Pakistan İslam Respublikasının baş naziri Məhəmməd Şahbaz Şərif mayın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Pakistanın baş naziri dövlətimizin başçısına Hindistanın ölkəsinə qarşı hərbi hücumları və atəşkəsin əldə olunduğu haqqında məlumat verib. Məhəmməd Şahbaz Şərif baş vermiş böhran zamanı Azərbaycanın göstərdiyi diplomatik, siyasi dəstəyə və Pakistan xalqı ilə həmrəyliyinə görə təşəkkürünü ifadə edib, bunun ölkələrimiz arasında qardaşlıq münasibətlərinin nümunəsi olduğunu bildirib.**

Dövlətimizin başçısı regionda atəşkəsin təmin olunduğunu məmnunluqla qeyd edib, Azərbaycan xalqı və dövləti tərəfindən Pakistana dəstəyin və həmrəyliyin ifadə edildiyini bir daha diqqətə çatdırıb.

Telefon danışığı zamanı ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, Pakistanın baş naziri bir gün əvvəl Azərbaycanın Pakistandakı səfiri Xəzər Fərhadovu qəbul edib.

Baş nazir Pakistanla sarsılmaz həmrəylik və dəstəyə görə Azərbaycan Prezidenti İlham Əliyevə, eləcə də qardaş Azərbaycan xalqına dərin minnətdarlığını bildirib. Baş nazir əlavə edib ki, qardaş ölkə tərəfindən nümayiş etdirilən mövqe iki xalq arasında möhkəm dostluğun və qardaşlığın təzahürüdür.

Regionda baş verənlər və əldə olunmuş atəşkəs razılaşması barədə danışan baş nazir gələcək dövrlərdə də hər hansı təcavüz qarşısında öz suverenliyini və ərazi bütövlüyünü qətiyyətlə müdafiə etməyə hazır olduğunu bildirib.

Baş nazir strateji xarakter daşıyan Pakistan-Azərbaycan münasibətlərinin inkişafından bəhs edərək, ikitərəfli əməkdaşlığın müsbət trayektoriyasından məmnunluğunu ifadə edib. O, Prezident İlham Əliyevin ötən ilin iyulunda Pakistana tarixi səfərinin iqtisadiyyat, ticarət və investisiya sahələrində yeni əməkdaşlıq imkanlarının açılması ilə mühüm mərhələ olduğunu bildirib. Baş nazir fevralda Bakıya səfərini xatırladaraq, Pakistanın qardaşlıq əlaqələrini qarşılıqlı faydalı iqtisadi tərəfdaşlığa yüksəltmək istəyini bir daha təsdiqləyib.

❑ "Yenì Müsavat"

YENİ MÜSAVAT
N 84 (8694) 16 may 2025

# "Görünür, indiki səfir bizim uğurları həzm edə bilmir..."

## Hidayət Orucov: "Mən çox şeylər bilirəm, amma açmadım" - şok açıqlamalar

**Azərbaycanın Qırğızıstandakı (2012-2021) sabiq səfiri, yazıçı, diplomat, dövlət xadimi Hidayət Orucov "Yeni Müsavat" da dərc olunmuş, bir müsahibə ilə əlaqədar onun söz haqqının tanınmasını istəyib. Söhbət ölkəmizin Qırğızıstandakı fövqəladə və səlahiyyətli səfiri Lətif Qəndilovun müsahibəsindən gedir. Beləcə, Hidayət Orucovla söhbətimizin ikinci hissəsini təqdim edirik:**

*(əvvəli ötən sayımızda)*

**- Yəqin ki, bu işlər yalnız ədəbiyyatı, mədəniyyəti əhatə etməyib, eləmi?**

- Xeyr. Qəndilovun intervüsündə son mədəniyyət günləri xatırlanır. Xarici ölkələrdən olan həmkarlarım hər tədbirdən sonra heyranlıqla, təbəssümlə məndən soruşurdular: "Cənab səfir, növbəti tədbirimiz haçandır?" Əvvəla, orada demək olar ki, hər ay Azərbaycanın mədəniyyət günləri idi. Amma böyük mədəniyyət günlərinə böyük hazırlıq gedirdi. Orada da yalnız konsert proqramı yox, rəqs və ilaxır yox, bunlarla yanaşı, teatr tamaşaları, filmlərimizin nümayişi, Azərbaycan ədəbiyyatı günləri, kitablarımızın sərgisi planlaşdırılırdı. Yeni 10 günün içərisində yazıçılar dəvət olunsunlar, orada görüşlər keçirilsin və ilaxır. Özü də yalnız Bişkekdə yox. Biz nəzərdə tuturduq ki, bu tədbirlər 2021-ci ildə keçirilsin. Amma çox təəssüf ki, COVİD imkan vermədi və biz bunu təxirə salmalı olduq. Eyni zamanda səfir müsahibədə ad çəkir... Cənab Prezidentin təşəbbüsü ilə orada humanitar yardım kimi Azərbaycanın park və bir orta məktəb tikintisi planlaşdırılırdı. Cənab Prezidentin göstərişi ilə o işlər çox aktiv başladı, smetalar tutuldu, vəsaitin bir hissəsi ayrıldı və qısa müddətdə orada çox qızğın işlər getdi. İstər parkın, istər məktəbin çox böyük hissəsi hazır oldu. Ancaq sonra COVİD Qırğızıstanda hər şeyi iflic etdiyindən işlər müvəqqəti dayandırıldı. Biz tikintinin 2021-ci ildə başa çatdırılmasını planlaşdırırdıq. İstəyirdik ki, cənab Prezidentin oraya səfəri zamanı bu tikintilərin açılışında iştirak eləsin. İndi mən çox məmnunam ki, məktəb də hazırdır, park da xeyli vaxtdır hazırdır. Cənab Prezident də onların açılışında iştirak etdi. O məktəbin təməlqoyma mərasimində mer iştirak və çıxış elədi. Amma parkın təməlqoyma mərasimində Prezident Jeenbekov özü gəldi, iştirak və çıxış elədi. Əlbəttə, hər iki təməlqoyma mərasimində səfir də nitq söylədi.

**- Sonrakı illərdə Prezidentlə yenidən görüşmək imkanınız oldumu?**

- Cənab Prezidentin ora iki səfəri oldu. Mən təxminən bir il işləyəndən sonra Prezidentin Bişkekə səfəri oldu. Orada MDB-nin tədbirində iştirak edirdi. Məni ayrılıqda qəbul elədi, müfəssəl söhbətimiz oldu, ona məruzələr etdim. O, mənə dedi ki, mən sizin işinizdən razıyam. Çünki Prezident orada məndən qabaqkı vəziyyəti məndən yaxşı bilirdi. İkinci səfəri İssık - Kulda oldu. Orada da beynəlxalq tədbir idi. Prezidentlər görüşdülər. Əlbəttə, Azərbaycan nümayəndə heyətinə keçmiş xarici işlər naziri də, Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri də qatılmışdılar. Jeenbekov Azərbaycanın səfiri haqqında xoş sözlər dedi. Bildirdi ki, bizim ictimaiyyət də, siyasəçilər də, yeni hökumət də, səfirlər də ona çox hörmət edir və həqiqətən çox səmərəli işləyir, çox işlər görür. Bizim Prezident dedi ki, o, Azərbaycanda böyük sahələrə rəhbərlik edirdi, buna görə mən onu bura göndərdim. İkinci dəfə isə Jeenbekov Bakıya gəlmişdi. Dövlət iqamətgahında görüş idi. Yenə iki prezidentin görüşü oldu. Məndən söhbət düşəndə Jeenbekov mənə üzünü tutub, bir az da obrazlı şəkildə dedi: "O, bizdə bütün səfirlərin komandiridir". (Gülür) Bizim Prezident də dedi ki, o, Heydər Əlirza oğlunun məktəbini keçib, Heydər Əlirza oğlu ona hörmət edirdi. Əlbəttə, orada İssık - Kuldakı görüşdə olan rəsmi şəxslər də iştirak edirdilər. Yalnız bunlar deyil. Bizim fəaliyyətimiz dövründə iqtisadi baxımdan da çox addımlar atıldı, Azərbaycanın iri şirkətləri Qırğızıstanda böyük layihələrin icrasına başladılar və sairə çox işlər oldu. Sonra səfirliyin maddi-texniki bazası yaradıldı.



**- Sizin dövrünüzdə?**

- Bəli, mənim dövrümdə. Özü də professional, ən yüksək səviyyədə. Bişkekin ən prestij yerində, o yerdə ki orada ABŞ-ın, Çinin, digər böyük ölkələrin səfirlikləri yerləşirdi, orada Azərbaycan səfirliyinə çox gözəl bina alındı. Səfirliyin normal işi, həmçinin konsulluğumuzun fəaliyyəti üçün ideal şərait yaradıldı.

**- Əvvəl harada yerləşirdiniz?**

- Əvvəl kirayədə idik, oraya şəhərin "qaraçılar məhəlləsi" deyirdilər. Orada, ümumiyyətlə, başqa bir səfirlik yox idi. Amma yeni ünvanda böyük dövlətlərin çoxunun səfirliyi, səfirlərin bir çoxunun iqamətgahları vardı.

**- Səfir Lətif Qəndilov hazırda həmin ünvanda çalışır, eləmi?**

- Əlbəttə, orada oturur.

**- Hidayət müəllim, elə isə bu yerdə soruşum, bu qədər görülən işləri sadaladınız. Həmçinin səfirliyin binasının alınması sizin dövrünüzdə olub. Elə isə nədən xələfiniz bu qədər işləri görməzdən gəlib? Bəlkə şəxsi münasibətlərinizdə problemlər olub?**

- Mən səfir təyin olunana qədər 20 il dövlət müşaviri, sonra komitə sədri işləmişəm. Nə problem ola bilərdi? Qırğızıstana təyin olunanda müraciət etdi, görüşdük. Məsləhət istədi. Səmimi münasibət bildirdim. İşə başlayandan az sonra Bişkekdən mənə telefon açdı, təşəkkür etdi. Lətif Qəndilovla mənim nə problemim ola bilərdi? Ondan sonra biz görüşməmişik. O ərəfədə mənim ona həmişə normal münasibətim olub. Amma ora gedəndən sonra mən anladım ki, onun problemi başqadır. Mən bəzi məsələləri açmaq istəyirəm. Amma o, çox haqsız, qərəzli, məkrli... Elə şeylər deyir ki... Məsələn, deyir bu gedənə qədər orada durğunluq olub. Guya bu gedib, orada Qorbaçovsayağı "yenidənqurma" aparıb. Birinci, diplomat gərək səmimi, obyektiv ola. Mənə belə gəlir ki, hələ səfiri demirəm, adi diplomat da o dərəcədə qərəzli, məkrli ola bilməz. Azı, mən beləsini görməmişəm. Mən ora gedəndə diaspor çox pərakəndə, dağılmış bir vəziyyətdə idi, problemləri də çox idi. Hətta diasporda ayrı-ayrı kiçik qruplar var idi, onlar Azərbaycana qarşı idilər. Mən gedəndən sonra onlar hamısı təşkilatlandı, birləşdi, artıq onlar fəxr edirdilər, deyirdilər ki, siz bura gələnə qədər bizə burada ayrı cür baxırdılar. Başqa cür çıxmasın, mən orada gecə-gündüz işlədim. Həmçinin mənimlə bir yerdə işləyən azsaylı kollektiv də - diplomatların da sayı az idi - bütün səylərini sərf edirdilər, çox səmərəli işləyirdilər. İndi Qəndilovun dedikləri təkcə mənə qarşı deyil, həm də o əməkdaşlara hörmətsizlikdir.

**- Azərbaycan və Qırğızıstan XİN rəhbərlərinin sizin fəaliyyətinizə münasibəti necə olub?**

- Hər iki nazirlikdə səfirin, səfirliyin fəaliyyətindən razılıqlarını həmişə bildiriblər. Və eyni zamanda Qırğızıstanın prezidentləri də. Məsələn, Sooronbay Jeenbekov mənim oradakı fəaliyyətimi çox yüksək dəyərləndirirdi. Böyük tədbirlərdə - orada diplomatik korpus ayrı oturur - yeni ölkə səviyyəli tədbirlərdə o, salona daxil olanda 40-dan artıq səfirin içərisində yalnız Azərbaycanın səfiri ilə şəxsən salamlaşırdı, görüşürdü. Və yeni prezident Sadır Japarov təzə seçiləndə, ölkə səviyyəli tədbir keçirdi. Yenə diplomatik korpus adından mənə söz verdilər, diplomatik korpus adından mən danışdım. Və mənim bir ifadəm özünün də çox xoşuna gəldi, sonra mənə deyirdi və ümumiyyətlə, bu haqda Bişkek, Qırğızıstan danışırdı, hər yerə yayılmışdı. Mən dedim, atalar üçəcən deyib. Yeni Akayev, Atambayev vaxtından tez, inqilabi dəyişikliklər nəticəsində getdilər. Sonra Sooronbay Jeenbekov da getdi. Bir məqamı da xüsusilə qeyd etmək istəyirəm. Mən oraya gedəndən sonra mətbuatla çox iş görüldü. Kanallar Azərbaycanı verirdilər, Azərbaycan həqiqətlərini yayırdılar, Qarabağın, ümumiyyətlə, torpaqlarımızın işğal altında olmasından bəhs edən verilişlər verirdilər. Əlbəttə, sonra səfirliyin fəaliyyətini, Azərbaycanın orada gördüyü işləri verirdilər. 44 günlük Vətən müharibəsi başlayan ilk gün Prezident Japarov Macarıstanda səfərdə idi. Oradan bəyanat verdi ki, bu, Azərbaycanın haqq işidir. Qələbəmizdən, zəfərimizdən sonra Azərbaycanın səfirini, məni ayrıca qəbul elədi. Neçə kameranın qarşısında cənab Prezidenti, Azərbaycan xalqını təbrik elədi. Çox gərəkli münasibət bildirdi və ürəkdən bütün qırğız xalqı, bütün Qırğızıstanın adından təbriklərini çatdırdı və bu, bütün dünyaya yayıldı. Dünyanın heç bir ölkəsində - bizim 90-a yaxın ölkədə səfirliklərimiz, diplomatik nümayəndəliklərimiz var - prezident möhtəşəm Zəfərimizlə bağlı ölkəmizin səfirini qəbul etmədi. Onun Azərbaycana, mənə münasibəti belə idi.

**- Maddi-texniki baza barədə də qeydləriniz oldu...**

- Məsələn, ora gedəndə səfirlikdə cəmi iki maşın var idi. Bir səfirin maşını işlək, bir də çox köhnə idi. Mən səfirlikdən ayrılanda orada 7-8 maşın var idi. Hamısı da demək olar ki, təzə işlək maşınlar idi. Bunun özü də kollektivin işləməsi üçün böyük imkan idi. Və çox böyük danışıqlar aparılandan sonra mən cənab Prezidentə məruzə elədim. Tarixdə ilk dəfə olaraq AZAL-ın Bakı-Bişkek reysi açıldı, həftədə 2 dəfə. Bunu o vaxt tarixi hadisə sayırdılar. Qırğızıstanın xarici işlər naziri o vaxt mənə dedi ki, birbaşa aviareysin açılması sizin dövrünüzdə baş verdi, sizin adınızla bağlı olacaq. Önçəki dövlət mükafatlarımı demirəm, yalnız səfirlik fəaliyyətim dövründə möhtərəm Prezidentimizin mənim fəaliyyətimə verdiyi yüksək qiyməti Qəndilova xatırlatmaq istəyirəm: 2014-cü ildə ölkəmizin ictimai həyatında fəal iştirakıma görə Azərbaycan Respublikası Prezidentinin Fəxri Diplomu ilə, 2019-cu ildə diplomatik xidmət orqanlarında səmərəli fəaliyyətimə görə 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə, səfirlik missiyam başa çatdıqdan sonra möhtərəm Prezidentimizin sərəncamı ilə "Heydər Əliyevin 100 illiyi (1923-2023 )" yubiley medalı ilə təltif olunmuşam. Sonuncu mükafatı hörmətli nazir Ceyhun Bayramov məni təklikdə qəbul edərək təqdim etmişdi. Lətif Qəndilovun qərəzi aşıb-daşanda heç olmasa hər iki dövlətin başçılarının yüksək mükafatlarına hörmət etməli idi. Üç ildən çoxdur orada səfirdir, mənim ilk üç ilimdə gördüyüm işlərin heç olmasa, üçdə birini görsün, ondan sonra "durğunluqdan", "yenidənqurmadan" danışmağa fakt axtarsın. Mən hələ qeyri-dövlət qurumlarının münasibətini demirəm. Həmin dövrdə Çingiz Aytmatov Akademiyasının həqiqi üzvü seçildim, TÜRKSOY-un ali mükafatı - "Onur"a və sair mükafatlara layiq görüldüm.

**- Səhv etmirəmsə, səlahiyyətiniz başa çatanda da qırğız prezidentlə görüşünüz olmuşdu, eləmi?**

- Bəli. Missiyam başa çatanda Sadır Japarov məni qəbul etdi, dönə-dönə təşəkkür elədi. Mənim orada gördüyüm işlərdən danışdı və əlbəttə, onun tövsiyəsi ilə mənə baş nazirin imzası ilə Qırğızıstan Nazirlər Kabinetinin Fəxri Fərmanını verdilər. Qırğızıstan və Azərbaycan arasında dövlətlərarası münasibətlərin inkişafında göstərdiyim mühüm xidmətlərə görə təltif olundum. Bilirsiniz, özüm haqda olan bu faktları bir az da xəcalət hissi ilə deyirəm. Fəaliyyətimi mənim prezidentim və Qırğızıstan rəhbərliyi belə dəyərləndirib, Lətif Qəndilovun məqsədi nədir, bunu özü bilər. Mən çox şeylər bilirəm, amma çox şeyləri açmadım. Demədiklərim çox oldu, onları açmaq istəmədim. Mən çox təəssüf edirəm ki, Azərbaycanın səfiri belə dezinformasiya yaymaqla məşğuldur. Görünür, indiki səfir bizim uğurları həzm edə bilmir...

*(Müsahibənin tam variantını Musavat.com-dan oxuya bilərsiz)*

**❑ Elşad PAŞASOY,**
**FOTO: "Yeni Müsavat"**

Yeni MÜSAVAT
N 84 (8694) 16 may 2025

# Ermənistan ordusu batır - sensasion bilgilər

## Düşmən sürətlə silahlansa da, vəziyyətin bərbad olduğunu özləri etiraf edirlər; **erməni müxalifəti:** “Niyə gənclərin bu qədər böyük faizi hərbi xidmətdən yayınır...”

**Ermənistan sürətlə silahlansa da, orduda vəziyyət həddən artıq bərbaddır. Bunu Azərbaycan deyil, erməni cəmiyyəti özü etiraf edir. “Yeni Müsavat”ın xəbərinə görə, hakim “Mülki Müqavilə” partiyasının təklif etdiyi Ermənistan parlamentində müzakirəyə çıxarılan “Hərbi xidmət haqqında” yeni qanun layihəsi kəskin reaksiyaya səbəb olub. Təklif olunan dəyişikliklərə görə 20 milyon dram (təxminən 50 min dollar) müqabilində icbari hərbi xidmətdən faktiki azad olunma, 15 milyon (təxminən 38 min dollar) ödənişlə qısamüddətli (6 aylıq) xidmət və digər variantlar var.**

Təşəbbüsü tənqid edənlər sosial ədalətə təhlükədən, korrupsiyanın leqallaşdırılmasından və müdafiə qabiliyyətinin sarsıdılmasından danışırlar. Məsələn, “Mənim şərəfim var” müxalifət fraksiyasının (Serj Sərkisyanın rəhbəri olduğu “Şərəfim var” partiyasından - E.S.) deputatı Tiqran Abramyan hesab edir ki, qanunvericilik təşəbbüsü sosial bərabərsizliyi dərinləşdirəcək.

Deputat hesab edir ki, bu qanun ona görə irəli sürülüb ki, imkanlı vətəndaşlar xidmətdən yayına bilsinlər. “Aydındır ki, siyasi baxışlarından asılı olmayaraq, cəmiyyətin bir hissəsi üçün təklif olunan model cazibədar görünə bilər: bu, qohumlarının müəyyən ödəniş müqabilində və ya müddətinin əhəmiyyətli dərəcədə azaldılması müqabilində hərbi xidmətdən qanuni şəkildə azad edilməsinə hüquqi əsaslar açır. Lakin bu məsələyə təkcə şəxsi və ya ailə maraqları baxımından deyil, həm də milli təhlükəsizlik baxımından yanaşmaq son dərəcə vacibdir. Bu gün problem təkcə hərbi qulluqçuların maaşının səviyyəsi ilə bağlı deyil. Bir çox sahələrdə silahlı qüvvələrin kadr təminatı ilə bağlı vəziyyət son dərəcə çətin olaraq qalır və bunun səbəbləri təkcə maliyyədən uzaqdır. Artıq dediyim kimi, bizim kimi kiçik dövlətlərdə insan resursları məsələsi xüsusilə həssasdır. Hətta layiqli maaşla belə, hərbi xidməti peşə kimi seçmək istəyən vətəndaşların sayı obyektiv olaraq məhdudlaşdırılır”, - deyə o bildirib.

Ümumiyyətlə, erməni müxalifəti hesab edir ki, bu qanun faktiki ordunun döyüş qabiliyyətinə zərbə vuracaq. Mövzunun sosial tərəfinə gəlincə, hökumət korrupsiyanın mövcud boşluqlarının, problemlərinin, təzahürlərinin aradan qaldırılması, yumşaldılması və ya azaldılması yolu ilə getmir, əksinə, bu qanun layihəsi ilə korrupsiyanı leqallaşdırmaq yolunu seçib. Hesab olunur ki, bu, sosial qütbləşmənin kəskin şəkildə dərinləşməsinə gətirib çıxaracaq.



Müxalifət onu da bəyan edib ki, Paşinyan hakimiyyəti ölkənin müdafiəsini və silahlı qüvvələrin müvafiq kadr təminatını həyata keçirə bilmir. “Niyə insanların bu qədər böyük faizi hərbi xidmətdən yayınır, səbəblər çox fərqlidir. Müxalifətin iddiasından anlaşılan odur ki, insanlar boş və mənasız ideologiyaya görə ölmək istəmirlər. Ordu cəmiyyətin gözündə hörmətini və statusunu itirib. Əhalinin bir hissəsi və bütövlükdə hökumət üçün artıq qəhrəman əsgər deyil, vergi ödəyicisidir”, - deyə rəylərdə bildirilir.

Onu da yada salaq ki, Prezident İlham Əliyev mayın 10-da Ağdam Muğam Mərkəzinin açılışında çıxışı zamanı dünyanın hərb tarixi üçün yeni mövzu təqdim etdi: son onilliklər ərzində hansı ölkələr müharibədə mütləq şəkildə qələbə qazana bilib?

Dövlət başçısı son onilliklər ərzində müharibədə mütləq və tam qələbini yalnız Azərbaycanın qazandığını bildirdi. Dünyada sonuncu dəfə tam və mütləq qələbə 80 il öncə - II Dünya müharibəsində faşizm üzərində qazanılıb və nasist Almaniyası kapitulyasiyaya məcbur edilib. Bundan sonra dünyada baş verən müharibələrin yeganə mütləq və tam qalibi Azərbaycan olub.

Cəmi 44 gün çəkən Vətən müharibəsində Azərbaycan ordusu dağlıq relyef, keçilməz meşəlik və Ermənistanın milyonlarla mina istehkamlarına rəğmən düşməni darmadağın etdi. Uzunluğu yüzkilometrlərlə ölçülən təmas xətti ordumuz tərəfindən müharibənin ilk günü - 27 sentyabrda cəmi bir gecədə yarıldı və 44 gün ərzində dayanmadan irəliləyərək, hər gün, hər saat yeni ərazilər azad etdi. Müharibədə tətbiq edilən taktika başda ABŞ olmaqla, dünya ölkələrinin hərbi strategiyalarını yenidən nəzərdən keçirməyə məcbur edib.

Vətən müharibəsindən isə 5 il ötür və Azərbaycan Ordusu o vaxtından daha peşəkar, daha təcrübəli, daha müasir texnikalarla təchiz olunmuş vəziyyətdədir. O zaman, bərbad vəziyyətdə olan erməni ordusu silahlanmaqla bizə nə edə bilər ki? Düşmən nəyə hazırlaşır belə?

**Polkovnik Şair Ramaldanovun “Yeni Müsavat”a açıqladığı sözlərinə görə, bəli, Ermənistan ordusu 44 gün davam edən müharibədə darmadağın olub:** “Düşmənin generalları bir neçə dəfə müdafiə nazirinə müraciət edib ki, ya ordunu yenidən quraq, ya da belə davam etmək olmaz. Digər tərəfdən, müxalifət ordu ilə bağlı yaranmış bu faktı əlində bayraq edib. Ancaq müxalifətin bu mövzuda iqtidar tərəfindən idarə olunduğunu da istisna etmirəm. Çünki Ermənistan silahlanır. Müxalifət də səslənir ki, ordu zəifdir, gücləndirmək lazımdır. İqtidar da ordunu silahlandırır”.

**Polkovnik sual edir ki, maraqlıdır, Ermənistan hansı hazırlığı görür və belə silahlanır**: “Ermənistan kimə qarşı silahlanır? Onun Türkiyəyə, İrana, Azərbaycana gücü çatarmı? Ermənistan nəzəri olaraq yalnız Gürcüstana bəlkə nəsə edə bilər. Yəni Ermənistan niyə belə silahlanır? Ona görə də deyərdim ki, Ermənistan silahlanmır, sadəcə, onu silahlandıranlar var”.

**Ş.Ramaldanov hesab edir ki, Ermənistana silahlanmaq qadağan olunmalıdır**: “Əvvəla, bu ölkəyə təhlükə yoxdur. İkincisi, təhlükə olsa belə, Ermənistanın özünü müdafiə etmək potensialı yoxdur. Sadəcə, onun təhlükəsizliyinə zəmanət verən havadarlar var. Eyni zamanda erməni ordusunun silahlanma sistemi olmalıdır. Onlarda biri Rusiyadan, biri Fransadan, biri Hindistandan hərbi texnikalardır. Azərbaycan isə silahlanma sistemi qurub. Ölkəmiz əsasən Türkiyə və İsraildən hərbi texnikalar alır”.

**Polkovnik məhz Ermənistanı silahlandıran havadarları ucbatından sülh müqaviləsinin imzalanmadığı qənaətindədir:** “Odur ki, təkrar edirəm - Ermənistan özü silahlanmır, havadarları tərəfindən silahlandırılır. Hətta Avropa Sülh Fondu bu ölkəyə hərbi yardım edir. Ancaq başda Fransa olmaqla, Avropa Birliyi bu prosesə cəlb olunub”.

❑ **Emil SALAMOĞLU,**
**“Yeni Müsavat”**

# Məmmədin, yoxsa Sedrakın oğlu?

## Robert Köçəryanın atasına görə Ermənistan parlamentində dava düşdü

**Xəbər verdiyimiz kimi, mayın 14-də Ermənistan parlamentində əlbəyaxa dava düşüb. Belə ki, eks-prezident Robert Köçəryanın deputat oğlu Levon Köçəryanın baş nazir Nikol Paşinyan haqda aşağılayıcı ifadələr işlətməsi vitse-spiker Akop Arşakyanı hiddətləndirib.**

Hakim partiyanı təmsil edən vitse-spiker Akop Arşakyan “camaat Robert Köçəryanın atasının azərbaycanlı olduğunu deyir, lakin biz bunu parlamentin tribunasından səsləndirmirik”, - deyə Arşakyan çoxdan yayılan iddianı təkrarlayıb.

Arşakyanın atmacasına dözümsüzlük göstərən Levon Köçəryan ayağa qalxaraq vitse-spikeri söyüb və ona “it balası!” deyib.

Daha sonra iqtidar və müxalifət deputatları zalda itələşib, bir-birilərini söyüb təhqir ediblər. Müxalifətə yaxın olan “Hraparak” qəzeti yazır ki, oxşar iddialar əvvəllər, xüsusən də 2021-ci il növbədənkənar parlament seçkiləri ərəfəsində də gündəmə gətirilmişdi. Qəzet qeyd edir ki, Robertin atası Sedrak Köçəryan Xocalı rayonunun Daşbulaq kəndində anadan olub:

“O, Dağıstan Kənd Təsərrüfatı İnstitutunu bitirib, sonra Qarabağa qayıdıb, bir sıra məsul vəzifələrdə çalışıb. 1977-ci ildə vəfat edib”, - qəzet yazıb.

Eyni zamanda Robert Köçəryanın anası haqqında da qısa bilgi verilib. Bildirilib ki, onun anası Emma Ohanyan əslən Hadrut rayonundandır. Əvvəl Leninakanda, sonra Xankəndidə elmi işçi işləyib, 2015-ci ildə ölüb.

Azərbaycanlı jurnalist Qalib Arif bir neçə il əvvəl yazıb ki, Robert 1954-cü ildə avqustun 21-də Daşkəsəndə doğulub. Anası Emma Ohanyan Daşkəsənin keçmiş Şarukan kəndindəndir. Kəndin ibtidai sinif müəlliməsi Emma həddindən artıq gözəl qız olub. Bunu Daşkəsənin maarif şöbəsinin müdiri (milliyyətcə azərbaycanlı, əslən gəncəlidir, adını çəkmək istəmirəm) hamıdan əvvəl görüb, gənc və gözəl müəlliməni 1952-ci ildə Daşkəsən şəhər məktəblərindən birinə dəvət edib. Emma Ohanyan Daşkəsən şəhər məktəbində müəllimə işləyir, şəxsən onun üçün bina evində kirayə edilmiş mənzildə yaşayır. Maarif müdiri təbii ki, gənc müəllimənin taleyinə biganə qala bilmir, tez-tez ona baş çəkir. Beləliklə, gələcək Ermənistan prezidenti Robertin “təməli qoyulur”. İddialara görə, barəsində bəhs edilən maarif müdiri Məmməd Məcidov olub.

Qeyd edək ki, Vikipediya məlumatına görə, o, 1954-cü ilin 31 avqustunda Xankəndidə doğulub.

❑ **“Yeni Müsavat”**





# Zəhmətsiz gəlir qurbanları

Zamin HACI
zaminhaci@gmail.com

**Azərbaycan qəribə ölkədir, bizdə proseslər dünyanın başqa yerlərindən fərqlənir.**

Məsələn, dünyada insanlar banka pulu nə üçün qoyurlar? Artırmaq üçün, qorumaq üçün və sairə. Bizdə isə banka pul qoymaq onu oğrulara tapşırmaqdır. İnanmırsınızsa, xəbərləri izləyin. Hər gün bizə bank kartlarından nə qədər pul oğurlandığı haqda məlumat verilir. Normalda isə nə qədər faiz qazandığımız deyilməliydi. Bəlkə səhv edirəm? Maykl xaricdə bankdan mesaj alır ki, pulun bu qədər artdı, Mikayıl isə Bakıda bankdan xəbər alır: "Kartından bu qədər pulu əkişdiriblər, qaqa, gör neynirsən". Dəlixanadırmı? Yox. Normal həyatımızın axarıdır.

Həm də sanki bu xəbərləri yaymaqla dövlət özü xalqda bank sektoruna etibarsızlıq aşılayır. "Yaxşısı budur beş-üç qəpiyinizi evdə, yastığın altında saxlayın, nə olar, nə olmaz..."

Guya camaatı ayıq-sayıqlığa, bank hesablarını etibarlı qorumağa səsləyirlər, ancaq çoxlu ştatı olan təhlükəsizlik qurumları, kibercinayətkarlıqla mübarizə idarələri nə üçündür? Sanki quldurları biz özümüz tapıb cəzalandırmalıyıq.

Əlbəttə, mən burada xalqı tərifləmək istəmirəm, xalq da aydan arı, sudan duru deyil. Bugünlərdə bir cinayət işinin istintaqı başa çatıb, Qəbələdə həkimdən 250 min manat alan dələduzlara 8-9 il həbs verilib. Guya həkimi rayon xəstəxanasına baş həkim təyin etdirəcəklərmiş. Saxta sənədlər, möhürlü kağızlar da düzəldiblər. Bu dələduzları cəzalandırdınız, lap yaxşı, bəs o "qlavvraç" olmaq istəyən sarsaq niyə cəzasız qalmalıdır? 250 minə baş həkim keçmək vəzifəni dəyərdən salmırmı?

Təəssüf ki, bizim qanunvericilikdə rüşvət alan, dələduzluq edən cəzalanır, lakin rüşvət verənin, dələduz yemləyənin cəzası yoxdur. Səhv eləmirəmsə, qanunda belə yazıblar ki, rüşvət verən bu haqda əlaqədar orqanlara məlumat ötürsə cəzasız qalır və sairə. Məncə, rüşvət verənlər də ən azı rüşvət alanın aldığı cəzanın yarısı qədər cəza almalıdır. Əks halda, bu işdə perspektiv yoxdur.

Müftə pendir siçan tələsində olur, lakin uca millətimiz öz ayağı ilə gedib müftəxorların toruna düşür. Təzəlikcə bir süjet izlədim. Camaat TikTok-da hansısa bloger dələduzun zibilinə düşmüşdü. TikTokçu lotu reklam yayırmış, guya az pul verib ev əldə etmək mümkünmüş. Şikayətçilərdən biri 8 min, başqası 10 min, 6 min-filan deyənlər də vardı - məbləğində aldadılmışdılar. Axı 8 min manata evi necə almaq olar? Bunun dələduzluq olduğu məbləğin azlığından gözə girir axı. İnsanlar isə kirimişcə aldanırlar.

Süjetdə deyildi ki, bu dələduz hansısa şəhid ailəsinə ev verərək özünü reklam edirmiş. Əlbəttə. O evi elə siz yazıqların pulu ilə verib, bunu anlamaq üçün azca riyaziyyat lazımdır. Bu prosesin adı "maliyyə piramidasıdır". 1 adam 2 adamı, 2 adam 4-ünü cəlb edir və sairə, proses bu cür şişərək gedir. Sonrakı adamların ödədikləri əvvəldəki 1-2 adama verilir, bununla saxta şirkət, uydurma və fantastik qazanc imkanları reklam edilir. Piramida şişdikcə dələduzun pulu artır, sonrakılara isə verməyə pul qalmır - piramida çökür. SSRİ dağılanda bu üsulla Vahidbank-filan qurmuşdular. Sonralar muncuq düzənlər də bunun bir üsulu idi. Türkiyədə də bir gombul oğlan camaatı eləcə fırlatmışdı, nəsə ferma adıyla, dəqiq yadımda qalmayıb, buna ehtiyac da yoxdur. Sadəcə, kimsə sizə müftə qazanc vəd edirsə, onu dərhal tüpürüb qovmaq lazımdır.

Siyasətdə də belə tiplər olur, adına "populistlər" deyirlər. 1992-ci ildə onlardan biri az qala Elçibəyi seçkidə udmuşdu. 33 faizdən çox səs yığmışdı! Misalı ona görə gətirdim ki, guya SSRİ-də yaxşı təhsil olduğunu deyənlərə də aldanmayasınız, savadlı adam o cür lotunun küyünə getməzdi. Bir qahım həmin vaxt o lotuya səs verməsinin səbəbini soruşanda mənə belə demişdi: "Hamımıza 2 otaqlı ev verəcək". Ta nə ilə verəcək, bunu fikirləşmirdi.

Ancaq insafən sonrakı proseslər göstərdi ki, bəlkə lotunu seçsəydik daha uğurlu olarmış, çünki xalq hərəkatının lideri 1 il sonra xalqı atıb kəndinə qaçmışdı. Və həmin qahımın doğulduğu, yaşadığı 4 otaqlı evi də ermənilər işğal eləyib yandırmışdılar.

Yəni bu, qarışıq mövzudur, dərinə getməyək. Zəhmətsiz gəlir mifdir, ancaq bizdə zəhmətlə gəlir də mifdir.



# İnqilablar üçün ayrılan milyonlar - Bakı onları belə "batırdı"

## ABŞ Prezidenti bu pulların göyə sovrulduğunu deyib; Azərbaycan xarici QHT və fondların ölkəmizin daxili işlərinə müdaxiləsinə qarşı mübarizəyə illər əvvəl başlamışdı

**Ərəb ölkələrinə səfər edən ABŞ Prezidenti Donald Tramp çıxışı ilə yenidən diqqət mərkəzindədir. Birləşmiş Ərəb Əmirliklərində etdiyi çıxışında Ağ Ev rəhbəri ABŞ hakimiyyətinin digər dövlətlərin daxili işlərinə müdaxiləsini kəskin tənqid edib.**

Tramp Co Bayden administrasiyasını Yaxın Şərqdə həyata keçirilən hərbi əməliyyatlara görə ittiham edərək, bu müdaxilələrin "dövlət quruculuğu" adı altında ölkələri dağıtdığını vurğulayıb. O, neokonservatorları, "dövlət qurucularını" və liberal QHT-ləri Kabildə və Bağdadda sabitlik yarada bilmədən trilyonlarla dollar xərclədiklərinə görə qınayıb.

Trampın fikrincə, Səudiyyə Ərəbistanı və BƏƏ-də əldə olunan uğurlar Qərbin müdaxilələri ilə deyil, bölgə xalqlarının öz səyləri nəticəsində mümkün olub.

Tramp çıxışında vəd edib ki, ABŞ bundan sonra bu yanlış siyasətdən əl çəkəcək. Onun sözlərinə görə, yeni kurs regional liderlərlə əməkdaşlıq, terrorizmlə mübarizə və qarşılıqlı iqtisadi maraqlara xidmət edəcək layihələrə fokuslanacaq.

Aydındır ki, Bayden-Blinken administrasiyası dövründə digər ölkələrin daxili işlərinə müdaxilə, təzyiq və şantaj siyasəti, USAİD və digər kanallar vasitəsilə "rəngli inqilablar" ABŞ-ın xarici siyasətində əsas prioritetlərdən biri olub. Bu siyasətin təsirlərini Azərbaycan da son illərdə açıq şəkildə hiss etdi. Halbuki Bakı xarici QHT və fondların daxili işlərə müdaxiləsinə qarşı mübarizəyə illər əvvəl başlamışdı. Xarici fondlar və QHT-lər "demokratiyaya dəstək" şüarı altında ölkədə süni gərginlik və qarşıqlıq yaratmağa çalışırdı. Lakin Azərbaycan bu müdaxilələrin qarşısını aldı və onların "əl-ayağını" yığışdırdı.

Bakı nümunəvi bir model təqdim etdi: Xarici təsirlərə qarşı sərt mübarizə və milli sabitliyin qorunması. Bu model o qədər effektiv oldu ki, Gürcüstan belə "Xarici agentlər haqqında" qanun vasitəsilə oxşar siyasəti tətbiq etməyə qərar verdi. Azərbaycanın göstərdiyi bu iradə, regionda xarici müdaxilələrə qarşı daha geniş bir dalğanın başlanğıcı kimi qiymətləndirilə bilər.

**Politoloq Tofiq Abbasov** "Yeni Müsavat"a açıqlamasında bildirib ki, ABŞ-ın keçmiş administrasiyalarının hamısı daima özünü təzyiqə məruz qalmış digər xalqların "dostu" kimi qələmə verib. Onun sözlərinə görə, belə bir addım hələ 60-cı illərdə, USAİD-in yeni yaradıldığı vaxtlardan atılıb: "USAİD yardılmışdı ki, ABŞ siyasəti dünyada bərqərar olsun. Sonralar buna bənzər bir çox təşkilatlar ABŞ administrasiyasının razılığı ilə ölkələrin daxili işlərinə müdaxilə etməyə, inqilabları qidalandırmağa başladılar. 50-ci ilin əvvəllərində İranda hökumətin devrilməsində ABŞ birbaşa iştirak etmişdi. Faktiki olaraq bu ənənə Qərb və anqlosaks siyasətində həmişə olub. İndi isə Donald Tramp hər şeyi öz adı ilə çağırır. ABŞ doğrudan da güclü, hegemon dövlət olmaq istəyirsə, gücünü zəifliklərlə yox, layiqli addımlarla təsdiqləsin və nüfuzunu bərpa etsin. Yaxın Şərqdə ABŞ-ın nüfuzu axsaq bir vəziyyətdədir. Xüsusilə Co Baydenin dövründə ABŞ-a olan nifrət daha da artdı. Bu baxımdan Trampın Yaxın Şərq səfəri zamanı etirafları yerinə düşür. Bundan sonra gərək Amerika siyasətçiləri özləri-özlərini islah etsinlər. Trampın prezidentlik dönəmində bu ənənə oturuşacaqsa, sonra onun yerinə başqa adam hakimiyyətə gələndə köhnə hamam, köhnə tas edəcəksə, əlbəttə, bunun mənası olmayacaq. Dünya böyük bir yorğunluq hissinə qapılıb və arxaik yanaşmalardan bezib".

**Politoloq deyir ki, insanlara daha şəffaf və sağlam ruhda olan siyasət lazımdır**: "USAİD göstərdi ki, pulsuz pendir siçan tələsində olur. Əgər hansısa bir dövlət bu təşkilata bel bağlayırdısa, bir qədər sonra ondan asılı olurdu. Məqsəd isə ölkələrdə çevriliş etmək, öz adamlarını hakimiyyətə gətirmək idi. Bir çox ölkələrdə buna nail oldular. Lakin Azərbaycan dövlətinin ayıq-sayıqlığı belə bir prosesin ölkəmizdə də baş tutmasına imkan vermədi. Bunun təzahürlərini Ukraynada, Gürcüstanda, Moldovada gördük. Xaos onlara imkan verir ki, istədikləri məqamda ölkələrin daxili işlərinə qarışa bilsinlər. Hökumət rəsmilərinə nə etməli olduqları ilə bağlı təlimat verirdilər. Çalışırdılar ki, bu ölkələrdə düşünən beyinlər fəaliyyət göstərməsin. Təbii ki, Azərbaycan buna etiraz edirdi və bildirirdi ki, bizə heç kim təlimat verə bilməz. Onlara başa salındı ki, Azərbaycan hansı prosesdə nəyi etməli olduğunu özü bilir, dəstəyiniz lazım deyil. Bizim üstünlüyümüz onda idi ki, dövlət başçısı xalqla dialoq apardı və nələrin baş verdiyini anlatdı. Niyə bir qrup adam qəfildən Fəvvarələr meydanında peyda olurdu və plakatlar qaldırırdı? Şüarlar səsləndirən bu adamlar kimlər idi? Onlar xarici institutların maliyyələşdirdiyi adamlar idi. Belə institutlar insanları təsir altına salıb, meydana buraxırdılar.

Bizim o boyda Qarabağ dərdimiz var idi, lakin onun haqqında heç kim danışmırdı. Çağırışlar edirdik, dünyaya səslənirdik, lakin onlardan səs çıxmırdı. Əvəzində Azərbaycanda inqilab məfkurəsi adı altında LGBT, transgenderlər, həmcins evliliklərdən söz açırdılar. Bu, kimə lazım idi? Ona görə də qətiyyətlə belə qızışdırıcılığın qarşısını aldıq".

**Politoloq Qulamhüseyn Əlibəyli "Yeni Müsavat"a bildirib ki, ABŞ tərəfindən Azərbaycanda birbaşa hakimiyyət dəyişikliyinə cəhdlər olmasa da, kobud şəkildə siyasi müdaxilələr edilib:** "Azərbaycandakı siyasi partiyalar, QHT-lər, müstəqil siyasətçilərlə bağlı ayrıca proqram hazırlanmışdı. Azərbaycan hakimiyyəti isə bunun qarşısını almaq üçün vaxtında tədbirlər gördü. Xarici təsirləri kənarlaşdırdı. Doğrudur, Azərbaycanda Gürcüstandakı kimi xüsusi qanun qəbul olunmadı, amma xaricdən maliyyələşmə məsələlərini önlədi. İndiki dövrdə ABŞ rəsmilərinin bunu etiraf etməsi müəyyən əhəmiyyətə malikdir. Doğrudur, siyasət dəyişməyib. Əvvəllər ayrı-ayrı ölkələrdə maliyyə xərcləyib qızışdırıcılıq, çevriliş edirdilərsə, indi başqa üsulla ABŞ öz təsir dairəsini genişləndirir. Ukrayna sərvətlərinin istismarı ilə bağlı müqavilə bağlanmasını buna nümunə göstərə bilərəm. Suriyaya sanksiyaların azaldılması müqabilində sərvətlərindən istifadə ilə bağlı müqaviləni də demək olar. Yəni ABŞ bir az yönümünü dəyişib. Artıq pul xərcləmir, ölkələrdən pul, sərvət qoparır, təsirini oralarda gücləndirir".

❑ Şahanə RƏHİMLİ,
"Yeni Müsavat"



# İstanbulda gərgin gün

## Gün ərzində Rusiya-Ukrayna nümayəndələri arasında danışıqlar bir neçə dəfə ertələndi, qarşılıqlı ittihamlar...

**Mayın 15-də İstanbulda dünyanın diqqətlə izlədiyi Rusiya-Ukrayna danışıqları ətrafında müəmmalı proseslər baş verdi. Əvvəl nümayəndə heyətləri arasında görüşün Bakı vaxtı ilə saat 11-də olacağı deyilsə də, gün ərzində bir neçə dəfə ertələndiyi bəlli oldu. Bu ertələnmənin səbəbi haqda isə jurnalistlər heç bir məlumat ala bilmədilər. Heyətlər arasında susqunluq davam edərkən Rusiya və Ukrayna rəsmiləri arasında söz döyüşü qızışdı. Ukrayna Prezidenti Volodimir Zelenski Rusiyanın İstanbula danışıqlar üçün göndərdiyi nümayəndə heyətini "saxta" adlandırdı. "ABŞ Türkiyəyə yüksək səviyyəli nümayəndə heyəti göndərib. Rusiyanın nümayəndə heyətinin səviyyəsinə baxacağıq, gördüyümüz budur ki, saxtadır", - Zelenski vurğulayıb. Əks tərəf isə Ukraynanı danışıqlarda maraqlı olmamaqda ittiham etdi.**

Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova Zelenskinin Rusiya nümayəndə heyətini "butaforik" adlandırmasına sərt reaksiya verib. O, Zelenskini "kloun" və "butaforik lider" adlandıraraq, Ukrayna tərəfinin bəyanatlarını ciddiyə almadıqlarını bildirib.

"Almaniya, Fransa və Britaniya Ukraynada sülh istəmir". Rusiya xarici işlər naziri Sergey Lavrov belə deyib. Onun sözlərinə görə, Berlin, Paris və Londonun sülh istəmədiyinə dair çoxlu sübutlar var. Lavrov deyib ki, Trampın rəhbərliyi altında ABŞ administrasiyası





normal vəziyyətə qayıdıb: "Siyasətçilər və diplomatlar danışmağa borcludurlar". Lavrov Zelenskini "aciz insan" adlandırıb və onun çıxışlarının ciddiyə alınmamalı olduğunu bildirib.

**Nümayəndə heyətləri - kimlər var?**

Qeyd edək ki, Rusiyadan nümayəndə heyətinə prezidentin köməkçisi Vladimir Medinski rəhbərlik edib. Ekspertlərin sözlərinə görə, Putinin bu qərarı onu göstərir ki, Moskva bu görüşü üç il əvvəl İstanbulda başlayan danışıqlar prosesinin davamı kimi qiymətləndirir. Medinski həm də Putin Rusiyasının əsas ideoloqlarından biri kimi tanınır.

Nümayəndə heyətinə Rusiya XİN başçısının müavini Mixail Qaluzin, Rusiya Silahlı Qüvvələri Baş Qərargah rəisinin müavini İqor Kostyukov və müdafiə nazirinin müavini Aleksandr Fomin daxildir. Ekspertlər qrupuna isə Baş Qərargahın informasiya idarəsi rəisinin birinci müavini Aleksey Zorin, Prezident Administrasiyasının humanitar siyasət üzrə idarə rəisinin müavini Yelena Podobreyvskaya, Rusiya Xarici İşlər Nazirliyinin MDB ölkələri üzrə İkinci Departamentinin direktoru Aleksey Polişuk və Müdafiə Nazirliyinin beynəlxalq hərbi əməkdaşlıq baş idarəsi rəisinin müavini Vitali Şevtsov daxil edilib.

Ukraynanı isə ölkənin xarici işlər naziri Andriy Sıbiqa, Ukrayna Prezidentinin Ofisinin rəhbəri Andrey Yermak, Ukraynanın müdafiə naziri Rustem Umerov, Ukrayna Prezidentinin müşaviri İqor Yovkva və bir çox digər rəsmi şəxslər təmsil edib.

ABŞ dövlət katibi Marko Rubio və ölkənin Yaxın Şərq üzrə nümayəndəsi Stiv Uitkoff da Türkiyəyə gəliblər.

Türkiyəyə gəlməklə Zelenski "xoş niyyət" nümayiş etdirib, lakin Putinin yerində "boş stul olacaq". Bu sözlər Fransa xarici işlər naziri Jan-Noel Barrı tərəfindən səslənib. O əlavə edib ki, Putin sülh danışıqlarının başlanmasına maneələr yaradır və açıq şəkildə bu danışıqlara başlamağa hazır deyil - hətta prezident Trampın özünün vasitəçi olmaq niyyətini və hazır olduğunu ifadə etməsi də prosesə kömək etməyib.

Zelenski Türkiyə Prezidenti Ərdoğanla görüşdən sonra keçirdiyi brifinqdə deyib ki, İstanbula keçiriləcək Rusiya ilə danışıqlarda Ukrayna nümayəndə heyətinə ölkənin müdafiə naziri Rustem Umerov rəhbərlik edəcək.

**Musavat.com xəbər verir ki, Zelenski bu barədə Ankarada keçirdiyi brifinqdə danışıb. Onun sözlərinə görə, Trampa və Ərdoğana hörmət əlaməti olaraq, eləcə də deskalasiya istiqamətində ilk addımı atmaq ümidi ilə Ukrayna bu görüşlərə qatılır.**

"Biz hələ də hesab edirik ki, Rusiya bu danışıqlara ciddi yanaşmır və müharibəni dayandırmaq istəmir. Amma biz buradayıq və birbaşa danışıqlara hazırıq", - deyə Zelenski bildirib.

Prezident əlavə edib ki, Ukrayna nümayəndə heyəti İstanbulda 16 mayda da qalacaq və ABŞ, Türkiyə və Rusiya tərəfləri ilə görüşlər keçirəcək.

"Hazırda biz ABŞ və Türkiyə tərəflərindən bu gün və ya sabah görüşlərin saatı ilə bağlı konkretlik gözləyirik. Biz həmçinin Rusiyaya qarşı daha sərt sanksiyaların tətbiqini istəyirik. Əgər Rusiya müharibənin dayandırılmasına real hazırlıq nümayiş etdirməsə, Ukrayna ABŞ, Aİ və Qlobal Cənub ölkələrindən Kremlə qarşı sərt iqtisadi təzyiqlər tələb edəcək", - deyə Zelenski vurğulayıb.

**Hakan Fidan: "Rusiya və Ukrayna prinsipcə atəşkəs fikri ilə razılaşıb"**

Rusiya və Ukrayna prinsipcə atəşkəs fikri ilə razılaşıb.

APA xəbər verir ki, bunu **Türkiyə xarici işlər naziri Hakan Fidan** Antalyada NATO XİN rəhbərlərinin qeyri-formal görüşündən sonra brifinqdə deyib.

**Nazir qeyd edib ki, hər iki tərəfin atəşkəs üçün fərqli fikirləri var:** "Ukrayna tərəfi qeyd-şərtsiz atəşkəsin təminini istəyir, Rusiya tərəfinin də öz şərtləri var. Bunun müzakirəsi üçün tərəflər bir araya gəlməli, razılaşmadıqları məsələləri razılaşdırmalıdır. Bunun üçün ABŞ vasitəsilə başladılan Ukrayna-Rusiya müzakirələri müəyyən mərhələyə gəlib. Tərəflər artıq bir nöqtəyə gəlməyə çalışırlar. Bizim bu danışıqlara davam etməyimiz lazımdır. Məqsəd sülhə nail olmaqdırsa, hər iki tərəf müəyyən güzəştlər etməlidir. Vasitəçilərin üzərinə mühüm vəzifələr düşür. Bu məsələdə biz hər cür dəstəyi əvvəldən veririk və bundan sonra da verəcəyik".

**Hakan Fidan eyni zamanda ABŞ və Suriyadan olan həmkarları ilə üçtərəfli görüşdə hansı məsələləri müzakirə edəcəyini açıqlayıb. O bildirib ki, Prezident Rəcəb Tayyib Ərdoğanın Tramp hakimiyyətə gələndən sonra qaldırdığı məsələlərdən biri də ABŞ-ın Suriyaya qarşı sanksiyaları ləğv etməsi idi:** "Dünən Riadda ABŞ və Suriya prezidentlərinin görüşü, bir növ, həm tanışlıq xarakteri daşıyırdı, həm də ABŞ-ın Suriyaya qarşı sanksiyaları ləğv edəcəyinin ən yüksək səviyyədə elan edilməsi idi. Bu bizim diplomatik səylərimizin nəticəsi oldu. Bunu davam etdirmək lazımdır. Bu gün biz ABŞ və Suriyadan olan həmkarlarımla üçtərəfli görüşümüzdə dünən liderlər səviyyəsində əldə olunan razılaşmaların praktik olaraq həyata keçirilməsi üçün nə edilməli olduğunu müzakirə edəcəyik. Qarşımızda olan yol xəritəsini incələyəcəyik. Sanksiyaların ləğvi ilə paralel Suriyada olan ABŞ əsgərləri ilə bağlı məsələni də müzakirə edəcəyik. ABŞ əsgərlərini bölgəyə gətirən səbəblər aradan qaldırılarsa, onlar Suriyadan problemsiz şəkildə ayrıla bilər".

**Politoloq Elxan Şahinoğlunun da fikrincə, atəşkəsə nail olunmalıdır ki, güllələrin, mərmilərin havada uçuşmadığı, insanların ölmədiyi şəraitdə gələcək sazişin konturları ətrafında müzakirələr aparmaq mümkün olsun:** "İstanbul müharibənin dayandırılması üçün ilk addım ola bilər, tərsi heç bir tərəfin uğur əldə etmədiyi müharibənin davamı demək olacaq. İstanbulda ikinci dəfə də razılaşma əldə olunmasa, yay aylarında müharibənin şiddətinin artacağını müşahidə edəcəyik".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 84 (8494) 16 may 2025



## Arif Babayevə Heydər Əliyev Mükafatı təqdim olundu



**Xəbər verdiyimiz kimi, Prezident İlham Əliyevin 8 may 2025-ci il tarixli Sərəncamı ilə görkəmli muğam ustadı, pedaqoq, Xalq artisti Arif Babayev Heydər Əliyev Mükafatına layiq görülüb. Sənətkar Azərbaycan mədəniyyətinin inkişafında xüsusi xidmətlərinə görə bu ali mükafatla təltif olunub.**

Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva mükafatı Xalq artisti Arif Babayevin evində sənətkara təqdim edib. Fərəh Əliyeva Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın salamlarını və təbriklərini ustad xanəndəyə çatdırıb.

Arif Babayev Ümummilli lider Heydər Əliyevin mədəniyyətimizin, o cümlədən muğam sənətinin inkişafını daim diqqətdə saxladığını, qayğı göstərdiyini vurğulayıb. O, Ulu öndərin adını daşıyan bu ali mükafata layiq görülməsini həm də muğam sənətinə verilən yüksək qiymət kimi səciyyələndirib, Prezident İlham Əliyevə dərin təşəkkürünü bildirib.

Sənətkar bu günlərdə doğma yurdu Ağdamda Muğam Mərkəzinin istifadəyə verilməsini böyük sevinc və qürur hissi ilə qarşıladığını deyib: “Ağdam Muğam Mərkəzinin açılış mərasimini televiziyadan izləyirdim. Konsertdə xüsusilə "Qarabağ şikəstəsi"nin ifası zamanı göz yaşımı saxlaya bilmədim. Var olsun möhtərəm Prezidentimiz, Qarabağımızı bizə qovuşdurdu. İndi mədəniyyətimiz, muğamımız da o torpaqlara qaytarılır. İnanıram ki, Azərbaycan muğamı Qarabağda yenidən canlanacaq. Ağdamdakı Muğam Mərkəzi bu sahədə böyük rol oynayacaq.

Qarabağımızda mədəniyyəti belə sürətlə dirçəltdiyinə görə möhtərəm Prezident İlham Əliyevə, muğamımızın dünya şöhrəti qazanmasına davamlı dəstək verən Heydər Əliyev Fonduna və onun rəhbəri, əzizimiz Mehriban xanıma dərin minnətdarlığımı bildirirəm".

# Azərbaycandan ABŞ-a “Green Card”la gedənlərin sayı azalır

## “Nə təhsili, nə peşəsi olmayan, ingilis dilini bilməyən birinin lotereyada qalib gəlib Amerikaya gəlməsi ona heç nə vəd etmir” - ekspert

**ABŞ-a leqal yolla köçməyə və işləməyə imkan verən ən böyük proqramın - “Green Card” proqramı üzrə nəticələr açıqlanıb. 2025-ci il Müxtəliflik Vizası proqramına seçimlərin nəticələri mayın 4-də Bakı vaxtilə saat 20:00-dan etibarən məlum olub. 2025-ci ildə ABŞ-da yaşamaq icazəsi verən “Green Card” lotereyasında Özbəkistandan 5564 nəfər seçilərək qaliblərin sayına görə lider olub. Bu barədə “Green Card” nəticələrinin açıqlandığı Kentukki konsulluq mərkəzi məlumat yayıb. Məlumata görə, bu, bütün ölkələr arasında rekord göstəricidir. İkinci yerdə Əlcəzair - 5526, üçüncü yerdə Rusiya - 5519 nəfər. “Green Card” qazananların ümumi sayı 55 000 nəfər olub və hər onuncu qalib Özbəkistandandır. Azərbaycandan isə 1730 nəfər seçilib.**

Bundan əlavə, aşağıdakı ölkələrin vətəndaşları da “Green Card 2025" lotereyasını qazanıblar:

İran - 5,267 qalib;
Qırğızıstan - 3,095;
Tacikistan - 2,982;
Ermənistan - 2,971;
Qazaxıstan - 2,004;
Azərbaycan - 1.730;
Gürcüstan - 1.342.

Ən pis nəticələr isə Venesuela, Bruney, Vatikan, Marşal adaları və Norfolk adalarındadır. Bu ölkələrdən “Green Card” qalibi olmayıb. Qeyd edək ki, bütün dünyadan insanlar üçün ABŞ-a leqal köçmək imkanı sayılan "Green Card»a Azərbaycanda da böyük maraq var.

Hər il Azərbaycandan "Green Card» proqramına 60-90 min nəfər müraciət edir. Hələlik 2025-ci il proqramı üzrə Azərbaycandan "Green Card" udanların sayı məlum deyil. Amma əvvəlki illərin təcrübəsi göstərir ki, ölkəmizdən bu proqram üzrə ABŞ-a köçmək üçün müraciət edənlərin qalib gəlmək ehtimalı 1,2-3% arasında dəyişir. Belə ki, Azərbaycandan "Green Card" üçün müraciətlərin sayının çox az olduğu 2015-ci ildə - həmin il 14 min nəfər müraciət etmişdi - bu proqrama 454 nəfər seçilmişdi, bu ümumi müraciətlərin 3,25%i deməkdir. Ondan sonrakı illərdə uduş faizi kəskin azalaraq 1,2-1,3%-ə enib. 2020-ci ildə Azərbaycandan "Green Card" udanların sayı, ümumiyyətlə, 1%-dən də az olub - 91 mindən artıq müraciət sahibinin cəmi 899-u qalib gəldiyinə sevinib. 2021-ci ildə isə "Green Card" uduşu şansı daha da artıb və 2,73%-ə yüksəlib. 2021-ci ildən sonrakı dövr üçün statistik məlumatlar açıqlanmadığına görə, uduş faizini hesablamaq mümkün olmayıb. Ümumiyyətlə isə son Azərbaycandan "Green Card" uduşlarının sayı artmaqdadır. 2019-cu ildə bu proqramın qaliblərinin sayı 1200 nəfəri keçib. Ondan sonrakı illərdə uduş sayı artıb-azalmaqla 2021-ci ildə 1400 nəfərə, 2024-cü ildə isə 2046 nəfərə çatıb.




Qeyd edək ki, ABŞ-da 2025-ci ildə tətbiq olunan yeni immiqrasiya qaydaları bir sıra çətinliklər yaradıb. Bu dəyişikliklər, xüsusilə Donald Trump administrasiyasının sərt immiqrasiya siyasətləri nəticəsində, hüquqi daimi sakinlər üçün əlavə risklər və qeyri-müəyyənliklər doğurur. Qeyd edilir ki, bir sıra hallarda “Green Card” sahibləri deportasiya riski ilə üzləşə bilərlər. Belə ki, cinayətlərlə bağlı genişləndirilmiş təriflər: “Mənəvi pozğunluq” və ya “ağır cinayətlər” kimi kateqoriyalar genişləndirilib. Hətta əvvəlcə deportasiya üçün əsas sayılmayan kiçik cinayətlər belə indi deportasiya səbəbi ola bilər. Məqsədli saxtakarlıq, məsələn, saxta nikahlar və ya yalan sənədlərlə status əldə edənlər daha ciddi yoxlamalara məruz qalır və deportasiya riski altındadır. Eyni zamanda uzun müddət ABŞ-dan kənarda qalmaq, vergi bəyannaməsi verməmək və ya ABŞ-la zəif əlaqələr (məsələn, iş və ya ailə bağlarının olmaması) rezidentliyin tərk edilməsi kimi qiymətləndirilə bilər. Xüsusilə Hindistan kimi ölkələrdən olan yaşlı “Green Card” sahibləri ABŞ-a qayıdarkən sərhəd nəzarətində əlavə yoxlamalara məruz qalır. Onlardan Form I-407 imzalayaraq rezidentlik statuslarından könüllü imtina etmələri tələb olunur. Bu, onların hüquqlarını məhdudlaşdırır və deportasiya riskini artırır. ABŞ-da bəzi “Green Card” sahibləri siyasi fəaliyyətləri və ya ifadə azadlığı çərçivəsində etdikləri çıxışlara görə hədəf alınaraq saxlanılıb və ya deportasiya ilə üzləşib. Məsələn, Kolumbiya Universitetindəki Fələstinə dəstək aksiyalarında iştirak edən bir tələbə, hüquqi daimi sakin olmasına baxmayaraq, saxlanılıb.

**İqtisad elmləri doktoru, professor Fikrət Yusifov mövzu ilə bağlı “Yeni Müsavat”a fikrini bölüşüb:** “Donald Tramp hakimiyyətə gəldikdən sonra Amerikaya xarici vətəndaşların gəlməsinə münasibət dəyişməkdədir. Ağ Evin yeni rəhbəri indiyə qədər mövcud olmuş "Green Card" lotereya sistemi vasitəsi ilə dünyanın hər yerindən ABŞ-a qaliblərin gəlməsi səmərəli seçim vasitəsi hesab etmir.

Tramp Amerikaya ağıllı və imkanlı adamların gəlməsini istəyir. Əslində məntiqlə də bu dünyanın bir saylı ölkəsinə getməyin ən məqbul yolu hesab edilməlidir . Baxın, yerindən qalxan hər kəs Amerikaya getmək istəyirəm deyib, “Green Card” lotereya oyununda iştirak edir. Lakin adamın bu lotereyada qalib gəldikdən sonra Amerikada gəlib orada nə edəcəyinə, hansı işlə məşğul olacağına dair təsəvvürü belə yoxdur. Mən Amerikaya tez-tez səfər edənlərdən biriyəm. Orada bəzən “Green Card” vasitəsilə gəlmiş elə əcnəbiyə rast gəlirsən ki, ingilis dilində özünü təqdim edə bilmir. Nə təhsili, nə peşəsi olmayan, ingilis dilini bilməyən birinin lotereyada qalib gəlib Amerikaya gəlməsi ona heç nə vəd etmir. Amerika cəmiyyətində yaşamaq istəyən orada özünü reallaşdırmağı bacarmalıdır. Bu səbəbdən “Green Card” vasitəsilə ABŞ-a gələnlərin bir çoxu sonda geri dönməyə məcbur qalır.

Bildiyim qədər Tramp “Green Card” proqramının tamamilə ləğv edilməsini, əvəzində isə başqa daha mütərəqqi bir proqramın tətbiq edilməsini qarşıya məqsəd qoyub. Yeni proqramla ABŞ-A yalnız imkanlı və bacarıqlı insanların gəlişinə şərait yaradılacaq. Trampın hakimiyyətə gəlişindən sonra bu yolda ilk addım artıq atıldı. Böyük maddi imkanlara sahib olan adamların Birləşmiş Ştatlara gəlməsinə yaşıl işıq yandırıldı. Yeni qaydalara əsasən əcnəbi vətəndaş 5 milyon dollar ödəməklə qızıl karta sahiblənəcək və dərhal Amerika vətəndaşlığına qəbul olunacaq".

**Turizm üzrə ekspert Ceyhun Aşurov da mövzu ilə bağlı “Yeni Müsavat”a deyib ki, Azərbaycandan əvvəlki illərlə müqayisədə müraciətlərin sayı artır:** "Müraciətlərin sayı artsa belə, qaliblərin sayı müqayisədə daha az faiz olaraq görünür. Heç də bütün “Green Card” udanlar Amerikaya getmir. Gedənlər də oradakı reallıqlarla üzləşir, orada qalmaq istəmirlər. Bu da ümumi statistikada özünü göstərir. Orada şərtlər var. Səhv etmirəmsə, 5 il müddətində orada yaşamalıdır, bundan sonra vətəndaşlıq və digər imkanları əldə edə bilərlər".

Mütəxəssislər tövsiyə edir ki, ABŞ-a bu yolla gedənlər müəyyən ehtiyat tədbirləri görməlidir. İş, ailə və ya mülkiyyət kimi əlaqələr gücləndirilməlidir və mütəmadi olaraq vergi bəyannamələri verilməlidir. Səyahət zamanı diqqətli olmaq lazımdır. Uzun müddət xaricdə qalmaqdan çəkinmək, qayıdarkən ABŞ-da yaşama niyyətinizi sübut edən sənədləri (məsələn, işəgötürən məktubu, kirayə müqaviləsi) təqdim etməyə hazır olun. Hüquqi məsləhət almaq mütləqdir. Hər hansı bir hüquqi problem və ya qeyri-müəyyənlik halında, immiqrasiya hüquqşünası ilə məsləhətləşmək lazımdır. Forma I-407 imzalamağa məcbur edilməmək lazımdır. Sərhəddə və ya hava limanında bu formanı imzalamağa məcbur edilirsinizsə, hüquqlarınızı bilməli və lazım gələrsə, hüquqi yardım almalısınız.

❑ **Afaq MİRAYİQ,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 84 (8694) 16 may 2025

# PKK silahı yerə qoydu, bəs ASALA?

## Erməni terror təşkilatları qanlı terror aktları həyata keçirərək, yüzlərlə günahsız azərbaycanlının qanına və qətlinə bais olub

**PKK-nın özünü buraxması və silahları təhvil verməsi qərarından sonra diqqətlər erməni terror təşkilatlarına yönəlib. Ötən əsrin 70-80-ci illərində bütün dünyada türk diplomatlarına, sonrakı dövrdə isə Azərbaycan vətəndaşlarına qarşı törədilmiş sui-qəsdlər, qətllər erməni terror təşkilatlarının "Hnçaq", "Armenakam", "Daşnaksütyun"un əməlləri olub.**




Ermənistanın Qarabağ bölgəsinə qarşı qanunsuz və əsassız ərazi iddialarının ortaya çıxması ilə, erməni terror təşkilatlarının fəaliyyəti Azərbaycana yönəldi. Ümumiyyətlə, zaman-zaman belə rəylər var idi ki, PKK kürdlərin deyil, ermənilərin yaratdığı terror təşkilatıdır. Təsadüfi deyil ki, bu illər ərzində PKK-nın tərkibində ermənilər həmişə çox olub.

Arxiv sənədlərinə əsaslanan türkiyəli tarixçi Yusuf Halaçoğlu deyib ki, erməni terror təşkilatı ASALA-nın Türkiyədə fəaliyyətini dayandırmasından sonra PKK-nın yaradılması təsadüfi deyil. Əksinə, PKK rəhbərliyində təmsil olunanların yarıya qədərinin erməni əsilli olmaları onların Türkiyəyə qarşı düşmən kəsildiklərinin göstəricisidir. Arxiv sənədləri, hətta PKK rəhbəri Abdullah Öcalanın da erməni əsilli olduğunu sübuta yetirir. Bu isə əslində PKK ilə ASALA-nın "bir medalın iki üzü" olduğuna işarə edir.

PKK silahı yerə qoydu, bəs erməni terror təşkilatları nə vaxt türk qanı tökməkdən vaz keçəcəklər?

**AĞ Partiya başqanının müşaviri, siyasi şərhçi Azər Hüseynov "Yeni Müsavat"a bildirdi ki, terrorizm yalnız bir zorakılıq aktı deyil, həm də ideoloji və siyasi mübarizə formasıdır:** "PKK-nın ortaya çıxması əsasən Türkiyə dövlətini zəiflətmək və daxildə etnik qarşıdurma yaratmaq məqsədi daşıyırdısa, erməni terrorizmi daha qədim, ideoloji və tarixi köklərə söykənir. Osmanlı imperiyasının son dönəmlərində fəaliyyət göstərən "Daşnaksütyun" və "Hnçak" kimi təşkilatlar həm ideoloji, həm də praktiki olaraq türk-müsəlman əhalisinə qarşı nifrət və təmizləmə siyasəti yürüdüblər. XX əsrin sonlarında isə ASALA (Erməni Soyqırımı Ədalət Komandoları) kimi terror qrupları Türkiyə diplomatlarına qarşı silsilə sui-qəsdlər həyata keçirib.

Bu terror dalğası, sadəcə, siyasi deyil, həm də dini motivasiyaya söykənirdi. Erməni Apostol kilsəsi özünü tarixi Bizansın və xaçlı ideologiyasının davamçısı hesab edərək, Türk-İslam kimliyinə qarşı mənəvi və ideoloji savaş açıb. Bu dərin və sistematik nifrət yalnız siyasi iddialarla deyil, dini və mədəni çərçivədə formalaşmış bir "digərini ləğv etmə" yanaşması ilə də müşayiət olunur.

Bu səbəbdən erməni terrorizmi təkcə ərazi iddiası deyil, həm də Türk varlığının tarixdən silinməsi yönündə daha patoloji və nifrətyönümlü bir xətt izləyir".

**Siyasi şərhçi onu da qeyd etdi ki, təhlükə tam aradan qalxmayıb:** "Ermənilərdə kilsənin cəmiyyətdəki güclü rolu, həmçinin tarixi zərərçəkmişlik psixologiyasından çıxmamaq inadı bu cür nifrət ideologiyalarının yaşamasına zəmin yaradır. Bu baxımdan, erməni cəmiyyətində ciddi bir daxili islahat və ideoloji təmizlənmə prosesi baş vermədikcə, bu cür terror qruplarının tamamilə yox olacağını gözləmək doğru olmaz. Türkiyə və Azərbaycan dövlətləri bu təhlükələrə qarşı yalnız hərbi və təhlükəsizlik tədbirləri ilə deyil, həm də ideoloji və təbliğat sahəsində güclü tədbirlər görməlidirlər. İctimai rəyin doğru istiqamətləndirilməsi, tarixi həqiqətlərin beynəlxalq aləmə çatdırılması və bölgədə sülh təşəbbüslərinin təşviq olunması mühüm əhəmiyyət daşıyır. Türklərlə kürdlər arasında dini, mədəni və insani bağların qorunması və inkişaf etdirilməsi PKK kimi təşkilatların arxa planını tamamilə sıradan çıxara bilər. Ermənistan və erməni xalqı isə yalnız daxili ideoloji yenilənmə yolu ilə nifrətdən qurtulub regional əməkdaşlıq platformalarına daxil ola bilər. Əks təqdirdə, erməni terrorizmi bu xalqa və bölgəyə ancaq zərər gətirməyə davam edəcək".

**AMİP liderinin köməkçisi, politoloq Əli Orucov hesab edir ki, PKK öz-özünü ləğv etsə də, digər PYD, YPG, PJAK, KCK və bu kimi silahlı terror təşkilatları real təhlükə olaraq qalmaqdadır:** "Xüsusən də ABŞ, Qərb və İsrail tərəfindən hərtərəfli dəstək, yardım, silah, sursat alan Suriyanın Türkiyə ilə sərhədləri boyu geniş və zəngin ərazilərini nəzarətdə saxlayan PYD və YPG kimi hərbi-siyasi təşkilatlar fəaliyyətlərini davam etdirməkdədir və həmin terror təşkilatları real təhlükəli güclər olaraq qalmaqdadır. Bütün bu sadaladığımız terror təşkilatlarının tərkibində yüzlərlə, minlərlə erməni əsilli militanlar yer alır. Rəsmi təsdiq olunmayan məlumatlara görə, hətta PKKbaşı Öcalanın da erməni olduğu iddia edilməkdədir. Türkiyədə kimliyini gizlədən və kamfulyaj olunan çoxlu sayda kriptoermənilərin yaşaması halları var. Onlar da harada türkə və Türkiyəyə düşmən kəsilən təşkilat, yaxud qüvvələr varsa, həmişə onların tərkibində və ya yanında aktiv yer alırlar. Ermənilərin özləri də terror və qanlı aktlarda "ustadırlar". Onlar indiyədək Türk və Azərbaycan düşmənçiliyi aparmaqla onlarla terror və silahlı təşkilat yaradıblar. Təəssüflər olsun ki, Ermənistan bu gün də terroru dövlət siyasəti edən dövlətlərin önündə gedir. Ötən əsrin əvvəllərindən erməni terrorçuları indiyədək 200-ə yaxın diplomatın, dövlət adamının ictimai, siyasi və hərbi xadimlərinin qətllərini həyata keçiriblər. Onların içərisində ən qəddarı və ən yüksək səviyyədə təşkilatlananı ASALA və "Hnçak"dır. Həmin təşkilatların məqsədi Türkiyə və Azərbaycana qarşı terror həyata keçirmək, cəmiyyətdə xof və inamsızlıq yaratmaqdır. Daşnaksütyun partiyasının qərarı ilə 650 şəxsin "ölümə məhkum edilməsi" barədə 1919-cu ildə çıxarılan qərarla "Nemezis" adı verdikləri əməliyyatda 40-dan çox türk diplomatı, Osmanlı dövlətində ən yüksək vəzifə daşıdığımız şəxsləri, o cümlədən AXC dövründə yüksək posta olanları qətlə yetiriblər. Həmin canilər böyük dövlətlər, Fransa, ABŞ tərəfindən mühafizə altına alınmış, cəza çəkmələrinə imkan verilməmişdir. Hazırda terrorçulara Ermənistanda abidələr ucaldılıb, onlara "xatirə muzeyləri" yaradılıb. Hesab edirəm ki, Qərb, İsrail və ABŞ "müqəddəs yerləri boş" buraxmayacaq və PKK-nı əvəz edən terror təşkilatlarını yenidən dövriyyə buraxacaq. Bu erməni terror təşkilatları da, dini, yaxud da başqa etnik kürd terror təşkilatları da ola bilər. Hər halda, Türkiyədə, həmçinin Azərbaycanda arxayınlıq yaranmamalıdır. Nəzərə almaq lazımdır ki, erməni terror təşkilatları ayrı-ayrı vaxtlarda qatarlarda, metropolitendə, universitetdə qanlı terror aktları həyata keçirərək, yüzlərlə günahsız azərbaycanlının qanına və qətlinə bais olublar. Terrora qarşı amansız mübarizə hər an davam etməlidir".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**



# Zaxarovadan hərbçilərimizin paradda iştirakına münasibət

**Rusiya Azərbaycanla bağlı məsələləri qarşılıqlı hörmət əsasında həll etməkdə qərarlıdır.**

Rusiya Xarici İşlər Nazirliyinin mətbuat katibi Mariya Zaxarova belə deyib. XİN rəsmisi iki ölkə arasında müşahidə olunan gərginliyə münasibət bildirib: "Moskva Bakı ilə münasibətləri 2022-ci ildə imzalanmış "Müttəfiqlərin qarşılıqlı fəaliyyəti haqqında" bəyannamənin əsasında qurur. Rusiya bu sənədin bütün potensialını üzə çıxarmaq və yaranan bütün məsələləri qarşılıqlı fayda və hörmət əsasında həll etmək əzmindədir".

Zaxarova deyib ki, Azərbaycan Silahlı Qüvvələrinin Komando Briqadasının paradda möhtəşəm iştirakı ilə hər kəsi sevindirib. O, Bakıdan olan parad bölməsinin bu günü hər kəslə bölüşmək, özünün möhtəşəm iştirakı ilə onu tamamlamaq və faşizmə qarşı döyüşən veteranların, o cümlədən azərbaycanlıların xatirəsini ehtiramla yad etmək üçün Moskvaya gəldiyini vurğulayıb.

**Diplomat qeyd edib:** "Biz həqiqətən də şadıq ki, bu gün Azərbaycan vətəndaşları, Rusiyada və dünyanın digər ölkələrində yaşayan azərbaycanlılarla əcdadlarımızın tarixi xatirəsinə və şücaətinə hörmətimizdə həmrəyik".

İkitərəfli əlaqələrdən danışan Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi xatırladıb ki, Bakı ilə qarşılıqlı fəaliyyətin əsasını 2022-ci ilin fevralında imzalanmış Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamə təşkil edir: "Öz tərəfimizdən ikitərəfli münasibətlər üzrə bu əsas sənədin bütün potensialının ardıcıl olaraq aşkara çıxarılmasına, qarşıya çıxan bütün məsələlərin birlikdə, yüksək səviyyədə, qarşılıqlı hörmət əsasında həllinə sadiqik. Hökumətlər və xarici siyasət qurumları arasında bir sıra yüksək səviyyəli təmaslarımız mövcuddur".

Qeyd edək ki, AZAL-ın sərnişin təyyarəsinin qəzaya uğramasından 5 ay keçsə də, Rusiya tərəfindən hər hansı əməliyyat istintaq tədbirləri aparılmayıb, eləcə də bu hadisədə günahı olanlar tapılaraq məsuliyyətə cəlb olunmayıb.

Eyni zamanda bir müddət əvvəl Azərbaycanın bir sıra media resurslarına kiberhücumların Rusiyadan edildiyi təsdiqini tapıb. Moskva bu məsələyə də aydınlıq gətirməyib.

Bundan başqa, bir neçə gün əvvəl Azərbaycan parlamentinin üzvü Azər Badamovun Rusiyaya girişinə qadağa qoyulub, o, Moskvada aeroportda saxlanılaraq, deportasiya edilib. Rusiya tərəfi isə məsələ ilə bağlı əsaslandırılmış hər hansı açıqlama verməyib.

Bütün bu amillərin Azərbaycan Prezidentinin Moskvaya səfərinin təxirə salınmasına təsir göstərdiyi bildirilir.

Yeni MÜSAVAT
N 84 (8694) 16 may 2025

# Rusiyanın "5-ci kolon"la bağlı qərarının İmişlidə əks-sədası

## Ekspert: ""Georgi lenti"nin insanların yaxalarına vurulması təsadüfi sayılmamalıdır və bu bir siqnaldır"

**Rusiya Prezidentinin Administrasiyasının Ermənistanda parlament seçkilərinədək rusiyapərəst siyasətçiləri ("beşinci kolon") və informasiya siyasətini gücləndirmək qərarı barədə ötən saylarımızın birində məlumat vermişdik. Bu sahə ilə məşğul olmaq Rusiya Prezidenti Administrasiyası rəhbərinin birinci müavini Sergey Kiriyenkoya və ona tabe olan idarələrin əməkdaşlarına həvalə edilib.**

Təəssüf ki, Azərbaycanda hələ də dövlətin və xalqın mənafeyinə zidd, düşünülməmiş addımlar atan insanlar var. Söhbət İmişli rayon Ağsaqqallar Şurasının sədri Saleh Səmədovdan gedir. Bəllidir ki, 9 may günü rayonun kəndlərindən birində SSRİ-nin bayrağı qaldırılıb, tədbir iştirakçılarının sinələrinə Rusiya imperiyasının hərbi şöhrətinin simvolu olan "Georgi lenti" taxıblar.

Bundan sonra Səmədov İmişli Rayon Ağsaqqallar Şurasının sədri vəzifəsindən kənarlaşdırılıb, həmçinin Azərbaycan Ağsaqqallar Şurasının sıralarından çıxarılıb. Bu addım, əvvəla, Bakının öz suverenliyi və müstəqilliyi kimi mühüm məsələlərə nə qədər ciddi yanaşdığını, "zəhərli və zərərli imperiya" toxumlarını ölkəmizdə səpməyə imkan verməyəcəyini təsdiq etdi.

Bəs Rusiyanın "5-ci kolon"ları yenidən dirçəltmək qərarı uğur qazana bilərmi?

**Sabiq maliyyə naziri, professor Fikrət Yusifov** "Yeni Müsavat"a bildirdi ki, "beşinci kolon"a xidmət edənlər Azərbaycanın milli maraqlarını tapdalayan satqınlardır: "Bu adamlar millətinə, dövlətinə, vətəninə ürəkdən xidmət edə bilməzlər. Biz beləlirini mümkün qədər məsul vəzifələrdən uzaqlaşdırmalıyıq. Bunlar birbaşa Moskvadan idarə olunurlar, ali məqsədləri isə Azərbaycan cəmiyyətində pozuculuqla məşğul olub dövlətçiliyimizə zərbə vurmaq, cəmiyyətdə qarşıdurma yaratmaqdır. Yüz illər uzunu Azərbaycanda minlərlə fitnə-fəsad törətmiş, torpaqlarımızı yağmalamış bir dövlətin quyruqlarının içərimizdə yer alması bizim milli mənəviyyatımıza, milli varlığımıza və milli bütövlüyümüzə ciddi bir təhdiddir. Bu təhdidə qarşı addımlar atılmasa, Rusiyanın "5-ci kolon"ları yenidən dirçəlməsinin yeni-yeni təsirləri, fəsadları ilə üz-üzə qala bilərik".

**Siyasi şərhçi Əli Orucov bildirdi ki, Ermənistan bütün sahələrdə, eləcə də cəmiyyət olaraq da Rusiyanın nəzarəti altındadır:** "Kremlin dayaqları güclü olduğundan Paşinyan iqtidarına istədiyi vaxt ciddi problemlər yarada bilir. Azərbaycanda isə tam fərqli mənzərədir. Bakının Moskva ilə asılılığı qopmaz dərəcədə deyil və Bakı müstəqil siyasi xətt yürütmək iqtidarındadır. Azərbaycan Rusiya ilə strateji müttəfiqdir, bu onun Kremllə əlaqələrini balanslaşdıra və qarşılıqlı maraqların təminini sistemli qurmağa imkan verir. Rusiya Azərbaycanla münasibətlərinin korlanmasının hansı nəticələrə gətirəcəyini də hesablaya bilir. Ona görə də Bakı ilə birbaşa konfrontasiyadan qaçır, ancaq yumşaq təzyiq üsuluna əl atmaqla müəyyən şeylərə nail olmağa çalışır ki, bu da istədiyi nəticəni bir çox hallarda vermir".

**Ekspert hesab edir ki, Rusiyanın Azərbaycandakı "5-ci kolon"u daha təhlükəlidir. Çünki həmin insanlar konfulyaj olunaraq əsl simalarını gizlədirlər**: "Doğrudur, sabiq Prezident Administrasiyası rəhbəri Mehdiyevin dövründə rusiyapərəstlər daha təşkilatlanmış və şəbəkələşmişdilər və bütün əhəmiyyətli, vacib dövlət və qeyri-dövlət strukturlarında möhkəmlənmişdilər. Türkiyə-Azərbaycan münasibətlərinin daha da dərinləşməsi, Rusiyanın Ukrayna bataqlığına ilişməsi və ölkədə aparılan kadr və struktur islahatları "5-ci kolon"u zəiflətdi. Əvvəlki gücdə və mövqedə olmasa da təlimatlar Moskvadan verildiyi anda yatmış və konfulyaj olunmuş hücrələrin hərəkətə gətirilmək imkanı saxlanılmaqdadır. İmişlidə qanlı SSRİ imperiya bayrağının ucaldılması, rus şovinizminin simvolu olan "Georgi lenti"nin insanların yaxalarına vurulması təsadüfi sayılmamalıdır və bu bir siqnaldır. Bu planlı və məqsədli şəkildə həyata keçirilmiş məkrli niyyətdən xəbər verən aktdır. Biz indi elə bir mərhələdə və elə bir dönəmdə yaşayırıq ki, vətəndaş olaraq da təxribatlara və çirkin niyyətlərə uyulmamalı, bu cür hallara qarşı çevik reaksiya verilməlidir. İmişlidə 9 mayda həyata keçirilən təxribatı sıradan bir vətəndaş etməyib. Həmin şəxslə bərabər indiyədək onun fəaliyyətini görməzdən gələrək nəyinsə naminə onu vəzifə pillələrinə daşıyanlar da eyni məsuliyyəti bölüşməlidir. Bu həm də Rusiyanın Azərbaycanda yetişdirdiyi "5-ci kolon"a görk olardı ki, hərəkətlərinə görə cəzasız qalmayacaqlar".




**Ə.Orucov dedi ki, Kreml postsovet ölkələrində tərəfdarlarını və simpatizanlarını hərəkətə gətirmək üçün sistemli fəaliyyətə start verib:** "Azərbaycanda, yumşaq və ehtiyatlı formada "5-ci kolon" vasitəsilə gerçəkləşdirilməsi istisna olunmur. Amma zənn etmirəm ki, Rusiyanın Azərbaycandakı "5-ci kolon"u hədəflərinə çata bilsin. Üstəlik də hüquq-mühafizə və xüsusi xidmət orqanları xarici və daxili təhlükəsizliklə bağlı üzərlərinə düşən vəzifələri qüsursuz icra edirlər. Bununla belə, hesab edirəm ki, nəinki Rusiyaya, hətta başqa xarici qüvvələrə xidmət edən və onların tapşırıqlarını yerinə yetirməyə hazır olan bütün "5-ci kolon"lar zamanında ifşa edilməli və zərərsizləşdirilməlidir".

❑ **Etibar SEYİDAĞA,
"Yeni Müsavat"**

# Trampın ən yaxın adamı Bakını nişan verdi

## Azərbaycanın "İbrahim sazişləri"nə qoşulması ölkəmizə nə vəd edəcək?

**Azərbaycan tezliklə "İbrahim sazişləri"nə qoşula biləcək ölkələr sırasındadır. APA xəbər verir ki, bu barədə ABŞ Prezidenti Donald Trampın xüsusi nümayəndəsi Stiv Uitkof "Breitbart"a müsahibəsində bildirib. Onun sözlərinə görə, yaxın bir neçə ay ərzində bu sazişə 4-6 ölkə, o cümlədən Azərbaycan, Ermənistan, Suriya və Livan qoşula bilər.**




Yada salaq ki, ABŞ-ın 50-dən çox yəhudi ravvini "İbrahim sazişləri"nin genişləndirilməsi və türk dövlətlərini (Azərbaycan, Qazaxıstan və Özbəkistan) ora daxil etməklə bağlı ABŞ Prezidenti Donald Trampa müraciət edib. Eyni zamanda artıq bir müddətdir ki, Azərbaycanın "İbrahim sazişləri" çərçivəsinə qoşulacağı müzakirə edilir.

Bu barədə ABŞ-ın "Forbes" jurnalında məqalə dərc edilib. Yazıda "İbrahim sazişləri" çərçivəsinə qoşulmaq üçün namizəd olan ölkələrdən birinin Azərbaycan olduğu qeyd edilib.

"İbrahim sazişləri (Abraham Accords)" siyasi termin olaraq ilk dəfə ABŞ Prezidenti Donald Tramp və onun yeznəsi Jared Kuşner tərəfindən dilə gətirilib.

"İbrahim sazişləri" 2020-ci ildə rəsmi olaraq tətbiq olunmağa başlamış ərəb dövlətləri və İsrail arasında barışığı ehtiva edən plandır. Planın iki əsas hissəsi var, birincisi, Fələstin münaqişəsinin həlli və yeni Fələstin dövlətinin yaradılması, mövcud torpaqların BMT qərarlarından fərqli şəkildə, daha çox İsrailin xeyrinə bölüşdürülməsidir. İkinci hissəsi isə ərəb region ölkələri ilə İsrail arasında barışıq prosesidir.

**Milli Məclisin deputatı, Ana Vətən Partiyasının sədr müavini Günay Ağamalı** "Yeni Müsavat"a açıqlamasında qeyd etdi ki, regionun siyasi və iqtisadi konfiqurasiyasında mühüm rol oynayan ölkəmiz eyni zamanda qlobal miqyasda etibarlı tərəfdaşa və söz sahibi olan dövlətə çevrilib: "ABŞ Prezidentinin xüsusi nümayəndəsi Stiv Uitkofun Azərbaycanın "İbrahim sazişi"nə qoşulma ehtimalını bildirməsi ölkəmizin mədəniyyətlərarası dialoqun təşviqində qazandığı uğurların və yüksək rolun göstəricisidir. 2020-ci ildə ABŞ-ın vasitəçiliyi ilə İsrail və bir sıra ərəb ölkələri arasında imzalanan "İbrahim sazişləri" Yaxın Şərqin geosiyasi münasibətlər sistemində əsaslı dönüş nöqtəsi kimi qiymətləndirilir. Məhz bu səbəbdən sözügedən saziş İslam dünyası və Təl-Əviv arasında yaxınlaşmanın rəmzinə çevrilib. Birləşmiş Ərəb Əmirlikləri, Mərakeş, Sudan və Bəhreyn kimi dövlətlər İsraillə diplomatik əlaqələr qurmaqla yanaşı, iqtisadi və təhlükəsizlik əməkdaşlıqlarını da genişləndirirlər. Azərbaycanın "İbrahim sazişləri"nə potensial qoşulma ehtimalı, sadəcə, diplomatik gediş deyil, regionun gələcəyini yenidən müəyyənləşdirə biləcək tarixi addımdır. Bu qərar sayəsində ölkəmiz üçün yeni investisiya imkanları açılacaq, Qərb və İsraillə hərbi texniki əməkdaşlıq daha da inkişaf edəcək və Şərqlə Qərb arasında mühüm strateji mərkəz kimi rolu artacaq. Azərbaycan və İsrail arasında uzun illərdir yüksək səviyyəli strateji tərəfdaşlıq mövcuddur. Tərəflərin enerji, müdafiə sənayesi və texnologiya sahələrində əməkdaşlığı yüksək səviyyədədir. Bununla yanaşı, rəsmi Bakı İslam dünyasının bir parçası olaraq Təl-Əvivin müsəlman dövlətləri ilə münasibətlər qurmasında vasitəçilik rolunu artıra bilər. Bununla paralel, hesab edirəm ki, mövcud situasiya, yəni Bakının "İbrahim sazişi"nə qoşulma ehtimalı Fələstin məsələsinin həllinə öz töhfəsini verəcək".

**Siyasi analitik Asif Nərimanlının fikrincə, Bakı üçün Ankaranın da bu məsələdəki mövqeyi çox vacibdir:** "Azərbaycanın bu sazişə qoşulmasının müsbət perspektivləri var. Burada təhlükəsizlik amilinin güclənməsi, İsrailin texnoloji imkanlarına çıxışın genişlənməsi, o cümlədən sazişdə yer alan ərəb ölkələri ilə iqtisadi-siyasi münasibətlərin genişlənməsi, Yaxın Şərqdə mövqelərimizin möhkəmləndirilməsi kimi dividentlər qazanmaq mümkündür. Eyni zamanda ABŞ tərəfindən 907-ci düzəlişin ləğvi də reallaşa bilər. Lakin fikrimcə, iki məsələ Azərbaycan üçün həlledici ola bilər.

Birincisi, Ermənistanla sülh sazişinin imzalanmasıdır. ABŞ Ermənistanın da sazişə qoşulmasını istəyir və bunun üçün əvvəlcə Azərbaycanla sülh sazişi imzalanmalıdır. Tramp Administrasiyası sülh sazişinin hansı prinsiplər çərçivəsində imzalanmasına razı olacaq, Azərbaycanın haqlı tələbləri nəzərə alınacaqmı, Zəngəzur dəhlizinin açılmasına yanaşması necə olacaq? Bu suallara yanaşması Bakının mövqeyinə təsir edə bilər. İkincisi, Azərbaycanın strateji müttəfiqi olan Türkiyənin məsələyə yanaşmasıdır. Çünki "İbrahim sazişləri"nin ana hədəfi İsrail vektorlu güc ittifaqının formalaşdırılmasıdır ki, bu da Türkiyənin regional maraqları ilə toqquşa bilər. Bakı üçün Ankaranın da mövqeyinin əsas olacağını düşünürəm".

❑ **Cavanşir ABBASLI,
"Yeni Müsavat"**

**Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Avropa Şurası Nazirlər Komitəsinin Lüksemburq şəhərində keçirilən 134-cü sessiyasında iştirak və çıxış edib. Sessiyada çıxışı zamanı nazir müavini 2024-cü ilin yanvar ayında Azərbaycan nümayəndə heyətinin etimadnaməsinin Avropa Şurası Parlament Assambleyası tərəfindən təsdiq edilməməsinin hüquqi baxımdan tamamilə əsassız olduğunu və 2019-cu ildə təşkilatın Nazirlər Komitəsinin qəbul etdiyi qərarda əksini tapmış "bütün üzv dövlətlər bərabər əsasda Avropa Şurasının iki nizamnamə orqanında iştirak etməlidir" müddəası ilə ziddiyyət təşkil etdiyini bildirib. O, parlamentlərarası dialoq və əməkdaşlıq platforması rolunu həyata keçirməli olan assambleyada Azərbaycanın iştirakının qeyd-şərtsiz iştirakını bərpa etmək məqsədilə vəziyyətin tezliklə həll edilməsinin zəruri olduğunu vurğulayıb.**

# XİN-dən AŞ PA-ya görə Strasburqa sərt xəbərdarlıq

## Rəsmi Bakı Azərbaycanın sessiyalarda qeyd-şərtsiz iştirakının bərpasını istəyir; Səməd Seyidov yaranmış vəziyyəti şərh etdi



Xatırladaq ki, 2024-cü ilin yanvarında AŞ PA rəsmi Bakının üzərinə götürdüyü "əsas öhdəlikləri" yerinə yetirmədiyini əsas gətirərək Azərbaycanın nümayəndə heyətinin mandatının dondurulması barədə qətnamə qəbul edib.

Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə bəyan edib ki, AŞ PA-nın qərarı qərəzlidir. Son olaraq isə Prezident Avropa Məhkəməsinin heç bir qərarının Azərbaycan üçün hüquqi qüvvəsi olmadığını deyib. Bundan sonra AŞ PA-nın Almaniyadan olan üzvü Frank Şvabe növbəti dəfə ölkəmiz əleyhinə absurd ittihamlar irəli sürüb. O, "AzadlıqRadiosu"na müsahibəsində Azərbaycanda insan haqları ilə bağlı əsassız fikirlər səsləndirib. Alman deputat Azərbaycanın öhdəliyinin yerinə yetirilməyəcəyi təqdirdə nümayəndə heyətinin mandatının bərpasının mümkünsüz olacağını söyləyib. Göründüyü kimi, Bakının bu mövzuda səbri tükənib və Strasburqu bu ədalətsiz qərarı geri götürməyi tələb edir.

**Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidovla bu mövzuda danışdıq.**

"Məncə, Şvabe getdikcə öz-özünü elə bir vəziyyətə salır ki, deyəsən, yalnız Azərbaycan onun mövcudluğunu hələ aktuallaşdırır. Qalan siyasi, yaxud da başqa dairələr Şvabe kimdir, nəçidir, hansı yuvanın quşudur, onları heç maraqlandırmır. Bunu mən elə-belə demirəm. Ona görə ki, Şvabe Azərbaycanın vasitəsilə özünü aktuallaşdırmaq istəyir. Bu da təəssüf ki, iflasa uğramış siyasətçilərin metodudur", - deyə deputat bildirdi. S.Seyidov daha sonra dedi: "Özlərini nə iləsə göstərmək, hansısa bir hərəkət etmək istəyirlərsə və heç cür özlərini reallaşdıra bilmirlərsə, çox təəssüflər olsun ki, bu metodlardan istifadə edirlər, yalan, böhtan, təhqir səviyyəsində öz ritorikalarını yüksəltməyə başlayırlar. Bu isə çox təəssüflər olsun həm onların səviyyəsini göstərir, həm də Avropada gedən proseslərin, siyasi münasibətlərin dərəcəsini və vəziyyətini birbaşa təqdim edir. Bu, birinci... İkincisi, həm cənab Prezident, həm Azərbaycan rəsmiləri konkret olaraq öz münasibətlərini bildiriblər. Söhbət ondan gedir ki, 2024-cü ilin əvvəlindən indiyədək Azərbaycanın nümayəndə heyəti Avropa Şurasının Parlament Assambleyasının 10-a yaxın böyük sessiyasında Azərbaycan təmsil olunmayıb. Bunu ona görə deyirəm ki, hər sessiyada, istəyir daimi komitənin sessiyası olsun, istəyir böyük sessiya olsun, Avropa İnsan Haqları Məhkəməsinin hakimləri seçilir. Ölkələr öz namizədlərini təqdim edir. Bu namizədlər müvafiq komitələrə, həmçinin xüsusi komitə var, ora çıxarılır. AŞ PA-da AİHM-in hakimlərinin seçilməsi ilə bağlı komitəsi var. Orada müzakirələr gedir. Müzakirələrdən sonra isə tövsiyələr verilir, təqdim olunan 3 namizəddən kim birinci olacaq və sair. Sonra isə bunları həmin sessiyalarda səsverməyə cəlb edirlər. AŞ PA deputatlarının səsverməsi ilə AİHM hakimləri seçilir. Bu müddət ərzində biz həmin seçkilərdə iştirak etməmişik. Deməli, bu hakimlərin heç birini nə tanımırıq, nə üzlərini görməmişik, nə müzakirələrdə iştirak etmişik, nə bunlarla bağlı seçkilərdə hansısa fəallıq göstərməmişik. İndi mən özüm-özümə sual verirəm və bu, məntiqi bir sualdır: seçmədiyim hakimin qərarını necə icra edim? Burada bir vacib məsələ var: niyə Parlament Assambleyası hakimləri seçir? Bu, çox vacib sualdır. Bu suala cavab belədir: AİHM öz-özünün hakimlərini təyin edə bilməz. Ona görə ki, onda qərarlar ölkələr üçün mütləq olmaz. Bunları mütləq millət vəkilləri seçməlidir. Ona görə ki, millət vəkillərini xalq seçirsə, xalq onlara öz istəklərini, etimadını bildiribsə, deməli, onların seçdiyi adamlar da həmin xalqın, seçmək üçün göndərilən insanların hüququna uyğun olan şəxslər olacaq. Yəni hakimlərin deputatlar tərəfindən seçilməsi həmin hakimlərin legitimləşməsidir. Ona görə ki, mən Azərbaycan xalqının nümayəndəsi kimi Avropa Şurasında buna səs verirəmsə, deməli, Azərbaycan xalqı da bu hakimin qərarını icra etməyə öz imzasını qoya bilər. Ancaq mən orada iştirak etmirəmsə, bir xalqın nümayəndəsi kimi, siz mənsiz o hakimi seçirsinizsə, o hakimin qərarı mənim xalqım üçün necə icra oluna bilər? Hansı hüquqla, hansı əsasla?! Bu vəziyyəti mən yaratmamışam. Bu vəziyyəti AŞ PA yaradıb, Azərbaycan nümayəndə heyətinə qərəzli mövqe sərgiləyərək, faktiki bizim orada işləmək imkanlarımızı məhdudlaşdırıb və bizi elə vəziyyətə gətirib çıxarıb ki, biz öz səlahiyyətimizi, fəaliyyətimizi dayandırmışıq.

**"Azərbaycanın Avropa Şurası qarşısında götürdüyü öhdəliklər var, onlarla bağlı hər hansı narahatlıq mövcuddurmu" sualına S.Seyidov belə cavab verdi:** "Mən Avropa Şurasına üzv olaraq, AİHM-in qərarlarının icra olunması ilə bağlı öhdəlik götürmüşəm. Ancaq gərək bu icra mühiti təmin olunsun. Yəni siz öz tərəfinizdən bunu təmin etmirsiniz. Azərbaycan tərəfindən isə bunun təminatını tələb edirsiniz. Əlbəttə, qarşılıqlı öhdəliklər var. Mən oradakı seçkilərdə iştirak etməliyəm, hakimləri formalaşdırmalıyam, sonra onları məhkəməyə göndərməliyəm, sonra onlardan hesabat istəməliyəm. Deməli, siz bunların hamısını kənara qoyursunuz, ancaq mənim iştirakım olmadan formalaşmış AİHM hakiminin hökmünü mənə mütləq sənəd kimi göndərirsiniz. Söhbət ondan gedir ki, bu məhkəmənin qərarının icrası üçün iki tərəf öhdəliklər götürüb. Bir tərəf bu öhdəlikləri tam şəkildə yerinə yetirmir, o biri tərəfdən isə yerinə yetirməyi tələb edir. Söhbət bundan gedir..."

❑ **Elşad PAŞASOY,**
**Musavat.com**

# Azərbaycanda real müxalifət kimdir?

## Partiya sədri: "Qarabağ işğaldan azad olunduqdan sonra real müxalifətçilik üçün əsaslar xeyli sarsılıb"



**Azərbaycanda müxalif siyasi partiyaların fəaliyyəti cəmiyyət tərəfindən heç də birmənalı qarşılanmır. Sosial şəbəkələrdə, ictimaiyyət arasında gedən müzakirələrdə real müxalifətin fəaliyyətinin faktiki hiss olunmadığı qeyd edilir. Eləcə də parlamentdə təmsil olunan müxalif siyasi partiyaların gözləntiləri qarşılaya bilmədiyi vurğulanır.**

Modern.az Milli Məclisdə təmsil olunan siyasi partiya nümayəndələrindən məsələyə münasibət öyrənib.

**Böyük Quruluş Partiyasının sədri, Milli Məclisin komitə rəhbəri Fazil Mustafa** real müxalifətin olmadığı ilə bağlı fikirlə razıdır: "Qarabağ işğaldan azad olunduqdan sonra real müxalifətçilik üçün əsaslar xeyli sarsılıb".

**Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini, deputat Tənzilə Rüstəmxanlı** bildirib ki, sabit siyasi münasibətlər sistemi kimlərisə qane etmir: "Hər bir normal dövlətin idarəetmə sistemində iqtidar olduğu kimi, ona əks mövqe və düşüncə sərgiləyən müxalifət də olur. Bu, demokratik ölkələrin əsas prinsip və atributlarından biridir. Təbii ki, müxalifətin apardığı fəaliyyət və təqdim etdiyi ideologiya əsasında müəyyən topluluqlar onlara qoşulur və bu yöndə sistematik fəaliyyət göstərir. Azərbaycanda da kifayət qədər müstəqil fəaliyyət göstərən müxalifət komponentləri mövcuddur".

**"Real müxalifətin yaranması üçün müəyyən zaman, dövr lazımdır".**

**Böyük Azərbaycan Partiyasının sədri, deputat Elşad Musayev belə deyib:** "Etiraf edək ki, 44 günlük müharibədən sonra Prezident İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının mövqeyi daha da gücləndi. Bu bir faktdır. Parlamentdə Yeni Azərbaycan Partiyası üstünlük təşkil edir. Hakimiyyətdə Yeni Azərbaycan Partiyasıdır. Bunlar iqtidar partiyasının müxalifətdən güclü olduğunu deməyə əsas verir. Yəni bu, faktdır. Amma real müxalifətin yaranması üçün müəyyən zaman, dövr lazımdır. Partiyalar yenidən formalaşır. Siyasi partiyaların formalaşması da müəyyən nüanslardan asılıdır".

"Real müxalifətin olmadığını deyənlər müxalifliyi səhnəlik şoularla qiymətləndirənlərdir". **Milli Cəbhə Partiyasının sədri, deputat Razi Nurullayev** deyib ki, son zamanlar sosial şəbəkələrdə və bəzi ictimai dairələrdə Azərbaycanda "real müxalifətin olmadığını" söyləyənlər əslində reallıqdan daha çox, siyasi fəaliyyəti ya görmək istəməyənlər, ya da müxalifəti yalnız səhnəlik şoularla qiymətləndirənlərdir: "Bəli, bu gün Azərbaycanda real müxalifət var - o, parlamentdə də təmsil olunur, cəmiyyət içində də fəaliyyət göstərir. Amma bəzi çevrələr müxalifəti yalnız qışqırmaq, dağıtmaq və ya küçədə şüarlar səsləndirməklə ölçürsə, bu artıq siyasi yetkinlik deyil, populizmdir.

Biz müxalifətik - təkcə ritorikada deyil, əməl və məsuliyyətdə də. Biz qanunvericilik təşəbbüsləri ilə çıxış edirik, hökumətin xalqın mənafeyinə zidd hesab etdiyimiz qərarlarına qarşı səsimizi ucaldırıq, tribundan haqsızlıq hesab etdiyimiz məsələlərə qarşı açıq şəkildə danışırıq və regionlarda insanların problemlərini birbaşa dinləyirik. Bunu görmək istəməyənlər ya məqsədli şəkildə gözlərini yumur, ya da siyasi düşərgələrin içərisində çaşqınlıq yaratmaq istəyirlər".

"Biz səs-küy salmaq yox, nəticə əldə etmək yolunu seçmişik. Əgər kimlərsə müxalifəti yalnız qıcıq doğuracaq radikal çağırışlarla ölçürsə, bu yanaşma Azərbaycanın siyasi sistemini inkişaf etdirmir, əksinə, gözdən salır. Müxalifətin işi xalqa xidmət etmək, real problemləri qaldırmaq və ictimai nəzarəti təmin etməkdir - biz bunu edirik və edəcəyik.

Sonda bir sual vermək istərdim: "real müxalifət yoxdur" deyənlər, özləri hansı real nəticələr əldə etdiklərini sadalaya bilirlərmi?", - R.Nurullayev əlavə edib.

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 84 (8694) 16 may 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi**

# Yeni Papa dilemma qarşısında

## Siyasi şərhçi deyir ki, yeni Papanın mövqeyi həm katolik ənənəsinə, həm də Qərb dəyərlərinə balanslı yanaşma tələb edir, amma...

**2025-ci ilin mayında Kardinal Robert Frensis Prevostun Papa Leo XIV adı ilə seçilməsi dünya ictimaiyyətində böyük maraq doğurub. Bu hadisə təkcə dini deyil, həm də siyasi və mədəni mənada əhəmiyyətli dönüş nöqtəsi kimi qiymətləndirilir. Yeni Papanın LGBT məsələsində sərt və mühafizəkar mövqe sergiləyəcəyi gözləntiləri isə geniş ictimai müzakirələrə səbəb olub. Katolik Kilsəsinin ənənəvi dəyərləri ilə Qərbin liberallaşan cəmiyyətləri arasında yaranan ziddiyyətlər bu gərginliyi daha da artırır.**



**Siyasi analitik Azər Hüseynov** "Yeni Müsavat"a açıqlamasında bu məsələnin dini, ideoloji və diplomatik aspektlərini əhatəli şəkildə təhlil edib: "2025-ci ilin mayında ABŞ vətəndaşı Kardinal Robert Frensis Prevostun Papa Leo XIV adı ilə Katolik Kilsəsinin başçısı seçilməsi yalnız dini deyil, həm də siyasi və mədəni səviyyədə əhəmiyyətli hadisə kimi qiymətləndirilir. Bu seçki ilə birlikdə, xüsusilə LGBT məsələsində Kilsənin hansı istiqamətə yönələcəyi geniş müzakirə mövzusuna çevrilib. Əvvəlki Papa Fransiskin dövründə müşahidə edilən nisbətən yumşaq və dialoqa açıq mövqe artıq dəyişə bilər. Leo XIV-ün əvvəlki bəyanatları onun bu məsələdə daha mühafizəkar və sərt bir xətt təmsil edəcəyinə işarə edir. Lakin məsələ təkcə bir şəxsin dini görüşlərindən ibarət deyil, burada böyük bir tarixi, teoloji və ictimai kontekst vardır. İslam, Xristianlıq və Yəhudilik kimi dinlərə görə insan cinsi kimliyi Allah tərəfindən yaradılıb və müəyyən edilib. Bu mənada istər homoseksual, istərsə də digər qeyri-ənənəvi cinsi münasibətlər insan fitrətinə və yaradılışın məqsədinə zidd sayılır. "Quran"da Lut qövmünün məhvi bu gün də İslam cəmiyyətlərində bu məsələyə münasibətin əsas arqumentidir. Katolik kilsəsində də eyni cinslər arasında münasibət "günah" olaraq dəyərləndirilir və bu mövqeyi dəfələrlə Kilsə sənədlərində görmək mümkündür. Yeni Papanın da bu doktrinal xətti qoruyacağı, LGBT münasibətlərini "İncilə zidd" adlandırması ilə bir daha təsdiqlənib. Əlavə olaraq, Kilsədə rahiblik institutu məsələyə daha həssaslıqla yanaşılmasına səbəb olur. Rahiblərin evlənməməsi və cinsəllikdən uzaq qalması onları həm simvolik, həm də praktiki baxımdan ictimai gözləntilərin mərkəzinə çəkir. Quranın Hədid surəsi, 27-ci ayəsində rahibliyin Allah tərəfindən vacib buyurulmadığı, lakin bəzilərinin buna riayət etmədiyi qeyd edilir. Bu, Katolik kilsəsinin daxilindəki bəzi ziddiyyətlərə Qurani bir baxışı da təklif edir. Məhz bu ziddiyyətlər son dövrdə baş verən uşaq istismarı skandallarında da ortaya çıxıb və Kilsənin ictimai nüfuzuna ciddi zərbə vurub".

**Analitik əlavə edib ki, LGBT məsələsinin geniş ictimai qəbulu təkcə hüquqi və siyasi sahədə deyil, mədəni və informasiya məkanında da baş verir:** "Qərb cəmiyyətlərində televiziya, kino və sosial media vasitəsilə LGBT həyat tərzinin normallaşdırılması sürətlə gedir. Populyar mədəniyyət LGBT-yə qarşı olan dini və ənənəvi yanaşmaları "köhnəlmiş", "geridə qalmış" kimi təqdim edir. Bu sahədəki ən güclü təbliğat isə şou-biznes sektorundadır. Bəzi məşhurların cinsəl kimliklərini açıq bəyan etmələri və bunun media tərəfindən təşviq olunması, xüsusilə gənclər arasında yeni cinsəl normaların yaranmasına səbəb olur. Belə bir atmosferdə yeni Papanın sərt mövqeyi, şübhəsiz ki, Kilsənin bu cəmiyyətlə münasibətlərində yeni gərginliklər doğura bilər. Avropa liberalizmi əvvəllər sadəcə iqtisadi və siyasi sahələri əhatə edirdisə, bu gün artıq ailə, cinsəllik və dini inanclar kimi şəxsi sahələrə qədər uzanıb. Bu liberallaşma cinsi yönəlmələrin də hüquqi və sosial tanınmasını zəruri edir. Bu müstəvidə formalaşan hüquqi sistemlər, LGBT-yə qarşı dini əsaslı tənqidləri nifrət çıxışı (hate speech) kimi qiymətləndirməyə başlayıb. Bu da dini liderlər, o cümlədən Papa üçün çox dar bir manevr sahəsi yaradır. Papa Leo XIV-ün ABŞ vətəndaşı olması, özünün Latın Amerikası kökləri olsa da, onu bu liberal ideologiyanın mərkəzində qərarlaşdırır. Onun mövqeyi bu səbəbdən həm Katolik ənənəsinə, həm də Qərb dəyərlərinə balanslı yanaşmanı tələb edir. Bu balanssızlıq isə ya dini legitimliyin, ya da ictimai nüfuzun zəifləməsi ilə nəticələnə bilər. Katolik kilsəsi son 20 ildə ciddi böhranlar yaşadı. Xüsusilə ABŞ, İrlandiya və Almaniyada yüzlərlə rahibin uşaq istismarı ilə ittiham olunması və bunların üstünün uzun müddət bağlanması Kilsənin etibarlılığına ağır zərbə vurdu. Papa Fransisk bu etimad böhranını yumşaldaraq dialoqa açıq, mərhəmətli və daha daxilədönük bir kilsə təsviri yaratmağa çalışdı. LGBT məsələsində də "Kilsə hər kəsi sevməlidir", "Onlar da Allahın övladlarıdır" kimi fikirlərlə daha çox qəbuledici ritorika qurdu. Bu mövqe Kilsənin əsas teoloji prinsiplərini dəyişməsə də, yeni sosial münasibətlərə uyğunlaşmaq cəhdi kimi dəyərləndirildi. Papa Leo XIV-ün isə ABŞ mənşəli olması bu məsələyə yeni siyasi kontekst əlavə edir. ABŞ-da Donald Trampın LGBT ideologiyasına qarşı açıq ritorikası və dini dəyərləri siyasi həyata qaytarmaq istəyi bəzi dairələrdə yeni Papanın da bu xəttə yaxın ola biləcəyi fikrini gücləndirir. Trampın fikrincə, dinlə siyasət arasında ciddi ayrım qoyulması Amerikadakı mənəvi deqradasiyanın səbəblərindən biridir. Bu baxımdan, yeni Papa da Kilsənin ictimai rolunu gücləndirmək, ailə institutunu və ənənəvi cinsiyyət anlayışını bərpa etmək üçün daha sərt mövqe tuta bilər. Lakin unutmaq olmaz ki, Vatikan yalnız dini deyil, həm də diplomatik bir qurumdur və onun başçısı olan Papa yalnız bir din xadimi deyil, həm də dövlət başçısı statusuna sahibdir. Bu səbəbdən onun hər hansı radikal mövqeyi, xüsusilə Qərbdəki tolerantlıq çərçivəsində, çox da sərbəst şəkildə ifadə oluna bilməz. Nəticə olaraq, Papa Leo XIV-ün LGBT məsələsində mövqeyi daha mühafizəkar ola bilər, lakin bu mövqe, sadəcə, teoloji deyil, həm də mədəni və siyasi təzyiqlərin təsirində formalaşır. O, Katolik Kilsəsinin minillik ənənəsini qorumaq istəyərkən, eyni zamanda liberal Qərb dünyasında fəaliyyət göstərən dini lider kimi yeni bir kommunikasiya dili tapmaq məcburiyyətində qalacaq. Bu səbəbdən də onun mövqeyi yalnız şəxsi inanclarla deyil, həm də Vatikanın diplomatik və sosial mövqeyi ilə müəyyən olunacaq".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Afaq MİRAYİQ

# Türkiyəli tarixçi: "Papa XIV Leo ermənidir"

## Nurxan Çətinkaya: "Onun əcdadları Kayseridən ABŞ-a gedib, orada dini təhsil alıb, sonra isə..."

**Türkiyənin "Cumhuriyet.com.tr" nəşrinə istinadən Ermənistanın "alphanews.am" nəşri yazır: "Türkiyəli tarixçi Nurxan Çətinkaya araşdırma apararaq katolik dünyasının yeni ruhani lideri Papa XIV Leonun erməni əsilli, Kayseridən olduğunu və onun qohumu olduğunu müəyyən edib.**



Bu barədə Çətinkaya sosial media hesabında açıqlama verib: "Onun əcdadları Kayseridən ABŞ-a gedib, orada dini təhsil alıb, sonra isə Vatikana gedib. Ana tərəfdən qohumumuzdur. Bu dünyamıza xeyir-dua olsun". Çətinkaya özü haqqında isə qeyd edir ki, o, erməni əsilli Türkiyə vətəndaşıdır: "Artıq 5 ilə yaxındır ki, Osmanlı və erməni tarixini araşdırıram. Köklərimi tapmağa çalışıram. 1900-1915-ci illər arasında deportasiya prosesi baş verdi və çoxlu erməni bu torpaqları tərk etdi və onların izləri itdi-batdı. Ana tərəfdən mən Kayseridən (Everek), ata tərəfdən isə Sivasdanam.

Belə ki, ana tərəfdən nənəmin qardaşı Setrak Parsehian həmin illərdə, yeni 1915-ci ildə Kayserinin Dəvəli bölgəsindən (Everek) Argentinaya mühacirət edib. Sonradan öyrəndim ki, onun oğlu indiki Papa Faruk Parsehiandır və əldə etdiyimiz məlumata görə, o, keşişdir. Onun katolik təriqətinə mənsub olduğunu və Vatikanda böyük uğurlar qazandığını öyrəndik. Təbii ki, biz bunu hələ təsdiq edə bilmərik. Çünki onunla görüşməmişik. Mən onun Kayseridən olduğunu iddia edirəm. Nəsil şəcərəsinə də baxanda əmin olursan ki, Setrakın oğlunun nəvəsi məhz odur (Papa XIV Leo)".

Robert Frensis Prevost Latın Amerikası əsilli amerikalı kardinaldır, yepiskoplar dicasteriyasının prefekti, Avqustinli, 2023-cü ildə kardinallığa yüksələn sonunculardan biridir.

69 yaşlı Robert Frensis Prevost Çikaqoda italyan, fransız və ispan ailəsində anadan olub. O, Filadelfiyadan riyaziyyat üzrə dərəcə alıb və 1977-ci ildə Müqəddəs Avqustin ordeni ilə təltif olunub, daha sonra isə ordenin dünya üzrə ümumi rəisi olub.

Xidmətinin çox hissəsini Peruda keçirib və burada o, effektiv və çoxyönlü kilsə lideri kimi şöhrət qazanıb. O, mülayimliyi ilə seçilir. Sələfi Fransisk kimi onun Latın Amerikası ilə əlaqələri var.

YENİ MÜSAVAT
N 84 (8694) 16 may 2025

# Mərkəzi Bankın proqnozu özünü doğrultmadı - 19 aydan sonra...

## Ekspertlər inflyasiyanın sürətlənməsinin səbəblərini izah edirlər




**Xəbər verdiyimiz kimi, ötən ay Azərbaycanda inflyasiya sürətlənərək 6,3 faizə yüksəlib. Bu, 19 aydan sonra qeydə alınan ən yüksək göstəricidir: inflyasiya səviyyəsi sonuncu dəfə 2023-cü ilin avqust ayında bu göstəricidən yüksək olub. Göstərici həmçinin Azərbaycan İqtisadiyyat Nazirliyi və Mərkəzi Bankının proqnozlarından yüksəkdir.**

Xatırladaq ki, aprel ayında Mərkəzi Bank uçot faiz dərəcəsi ilə bağlı sonuncu qərarını açıqlayıb. Həmin qərarda uçot faiz dərəcəsinin dəyişdirilməyərək əvvəlki (7,25 faiz) səviyyədə saxlanılmasının səbəbi kimi inflyasiyanın tənzimləyicinin hədəfi daxilində, 6 faizdən aşağı olması göstərilib.

Mərkəzi Bankın qərarında bildirilirdi ki, mövcud siyasət çərçivəsində baza ssenari üzrə 2025-ci və 2026-cı illərdə illik inflyasiyanın hədəf daxilində (4±2%) olacağı proqnozu dəyişməz qalır.

Qeyd olunurdu ki, 2025-ci ilin aprel ayında yenilənən proqnozlara görə illik inflyasiyanın cari ildə 5,3 faiz, 2026-cı ildə isə 4,3 faiz ətrafında olacağı gözlənilir.

Qeyd edək ki, Azərbaycanda inflyasiyanın hərəkətverici qüvvəsi kimi bir qayda olaraq ərzaq məhsulları çıxış edir. Apreldə ötən ilin eyni ayı ilə müqayisədə bu məhsullar 7,8 faiz bahalaşıb. Statistika Komitəsinin açıqladığı məlumata əsasən bu ilin dörd ayında ən yüksək inflyasiya meyvə və tərəvəz qiymətlərində qeydə alınıb. Belə ki, meyvə qiymətləri 2025-ci ilin yanvar-aprel aylarında ötən ilin eyni dövrü ilə müqayisədə 6,4 faiz, tərəvəz qiymətləri 17 faiz artıb. Təəccüblüdür ki, bu ilin əvvəlindən Azərabycan həm meyvə, həm də tərəvəz ixracını artırıb - yanvar-mart aylarında xaricə 153,3 milyon dollarlıq meyvə-tərəvəz ixrac olunub.

Rəsmi statistikaya əsasən bu ilin yanvar-aprelində ölkədə 147,7 min ton tərəvəz istehsal olunub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 12,4 faiz çoxdur. İstehsaldakı bu artım daxili bazarda qiymətlərin 17 faizlik artımı ilə müşayiət olunmaqdadır.

Aprel ayında dünya bazarında ərzaq qiymətləri mart ayı ilə müqayisədə 1 faiz bahalaşıb. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Qiymətləri İndeksi (FFPI) 2025-ci ilin aprel ayında orta hesabla 128,3 bənd təşkil edib ki, bu da mart ayı səviyyəsindən 1,2 bənd (1 faiz), ötən ilin aprelindəki səviyyədən isə 7,6 faiz çoxdur. FAO bildirir ki, apreldə şəkər və bitki yağlarının qiymət indekslərinin dəyərinin azalması taxıl, süd məhsulları və ətin qiymət indekslərinin dəyərindəki artımı kompensasiya etməyib.

Təşkilat aprel ayında taxıl qiymət indeksinin dəyərinin 111 bənd olduğunu bildirib. Bu, mart ayı göstəricisindən 1,3 bənd (1,2 faiz) çoxdur. Süd məhsullarının qiymət indeksi 3,5 bənd (2,4 faiz) artaraq 152,1 olub.

Ətin qiymətləri də xeyli artıb. İndeks apreldə 3,7 bənd (3,2 faiz) artaraq 121,6-ya yüksəlib.

Bununla yanaşı, şəkərin qiymət indeksi mart ayı ilə müqayisədə 4,1 bənd (3,5 faiz) azalaraq 112,8-ə düşüb. Həmçinin aprel ayında bitki yağlarının qiymət indeksi azalaraq (3,7 bənd və ya 2,3 faiz) 158 bənd təşkil edib.

Azərbaycanda aprel ayında kənd təsərrüfatı məhsullarının istehsalçı qiymət indeksi illik ifadədə 9,2 faiz artıb. Digər tərəfdən, 2025-ci ilin mart ayında idxal olunan məhsulların qiymət indeksi əvvəlki ayla müqayisədə 1,4 faiz, əvvəlki ilin müvafiq ayı ilə müqayisədə 23,4 faiz, 2025-ci ilin yanvar-mart aylarında əvvəlki ilin müvafiq dövrünə nisbətən 22,2 faiz artıb.

**İqtisadçı-ekspert Rəşad Həsənovun "Yeni Müsavat"a dediyinə görə, həm hökumət, həm Mərkəzi Bank, həm də beynəlxalq təşkilatlar inflyasiyanın sürətlənməsini proqnozlaşdırmışdılar:** "Lakin real göstəricilər onların proqnozlarını da üstələməkdədir. Bu da ondan irəli gəlir ki, 2025-ci ilin əvvəlindən beynəlxalq iqtisadi-siyasi mühitdə çox ciddi dəyişikliklər baş verir. Bunun da ticarət müharibələri, rüsumların kəskin artımı, qeyri-rasional iqtisadi münasibətlər sisteminə doğru ciddi meyllərin formalaşması kimi səbəbləri var. Bu proseslər qlobal ticarət sistemində ciddi transformasiyalar təhlükəsini formalaşdırdı ki, bu da ticarət proseslərində məhsulların bahalaşmasına gətirən amilləri aktivləşdirdi. Bu gün biz görürük ki, idxal olunan məhsulların qiymətində kəskin artımlar var. Heyvan mənşəli məhsullarda bu artım 17 faizdən artıq, bitki mənşəli məhsullarda 15 faizdən çox, yağlarda 30 faizə qədərdir. Bir sıra qeyri-ərzaq məhsullarında da ciddi bahalaşma var: qeyri-üzvü kimya məhsullarında 30 faizdən artıq, plastik məmulatlarda 20 faiz, toxuculuq məhsulları 40 faizə qədər, ayaqqabılar 44 faiz. Yəni ölkədə hazırkı şərtlər daxilində idxal inflyasiyasının ciddi təzyiqini müşahidə edirik. Bundan əlavə, xidmət sektorunda qiymətlər də sürətlə artır ki, bu da inflyasiyanın daxili amillərinin də aktivləşdiyini göstərir. Digər tərəfdən, ilin əvvəlində minimum əməkhaqqı, minimum pensiya məbləğlərinin artırılması da inflyasiyaya artırıcı təsir göstərən amillərdəndir. Bu gün istehsalçı qiymət indekslərində artım var, hansı ki, onun istehlak bazarına tezliklə yansıması baş tutacaq, yəni inflyasiya daha da sürətlənəcək".

**Ekspertə görə, inflyasiyanın yüksəlməsinə səbəb əsasən ölkə bazarının idxaldan yüksək asılılığıdır. Bu şəraitdə hökumət manatın məzənnəsini sabit saxlamaq üçün addımlar atmalıdır:** "Ən real təsiredici faktor məzənnənin saxlanmasıdır. Digər bir məsələ yerli istehsalın dəstəklənməsi ilə bağlıdır. Bu sahədə dövlətin yerli istehsal müəssisələrinə dəstəyinin davam etməsi vacibdir. İstehlak səbətinə daxil olan bir sıra məhsulların idxalının asanlaşdırılması, bazarda bolluq yaradılması üçün inhisarçı tərəflərin mövqeyinin zəiflədilməsi, məhsul təklif edənlərin sayının artırılması, sağlam rəqabətin bərqərar edilməsi vacib olan addımlardandır. Əks halda, Azərbaycanda inflyasiyanın daha da sürətlənməsi baş verə bilər. Bir sıra ölkələrdə məhsulların maya dəyərinə təsir edən faktorlar arasında digər amillər artırıcı təsir göstərəndə yanacaq qiymətləri azaldıcı təsir göstərir. Lakin Azərbaycanda bu prinsip işləmir: bir qayda olaraq neftin qiyməti düşəndə dövlət büdcəsi gəlirlərinin tarazlığını təmin etmək üçün yanacağın qiyməti artırılır. Buna görə də hökumətin digər effektiv alətlərdən istifadə edərək, qiymət artımını məhdudlaşdırması lazımdır. Bura Mərkəzi Bank tərəfindən sərt monetar siyasətin davam etdirilməsi, hətta deyərdim ki, bir qədər də sərtləşdirilməsi də aiddir. O cümlədən Mərkəzi Bank uçot dərəcəsinin artırılması istiqamətində addımlar ata, digər alətlərin vasitəsilə manatın məzənnəsinin saxlanmasını təmin edə bilər. Çünki manatın məzənnəsinin azalması inflyasiyanın daha da sürətlənməsi, əhalinin alıcılıq qabiliyyətinin kəskin azalması fonunda məcmu tələbin düşməsi və staqflyasiya təhlükəsini reallaşdırır".

**R.Həsənovun sözlərinə görə, ölkənin əsas ixrac məhsulu olan neftin dünya bazar qiymətinin aşağı düşməsi hökumətin əhalinin aztəminatlı təbəqəsini inflyasiyanın mənfi təsirlərindən qorumaq imkanlarını məhdudlaşdırır:** "Bu gün ölkədə sosial xərclərin əhatə dairəsinin genişləndirilməsi üçün əlavə vəsait cəlbi imkanları məhduddur. Lakin digər xərc istiqamətləri üzrə qənaət, şəffaflıq və hesabatlılığı təmin etməklə sosial müdafiənin gücləndirilməsinə yönəltmək üçün vəsait əldə etmək mümkündür".

**İqtisadçı Eldəniz Əmirova görə, xarici ticarət balansında dinamika mənfi istiqamətə gedərsə, eyni zamanda tələbin qarşılanması üçün təklifin azalması qeydə alınarsa, ölkədə inflyasiya daha da sürətlənər:** "Dövlət xərcləmələrinin artırılması inflyasiyanı artıran üçüncü bir faktordur. Dünya bazarındakı qiymət artımları idxal inflyasiyasının güclənməsinə gətirib çıxaracaq. Lakin düşünürəm ki, inflyasiyanın sürətlənməsi dövlət üçün heç də sərfəli deyil. Çünki bu, növbəti ildən dövlətin xərclərini daha da artırmış olacaq. Xüsusilə də sosial xərclərin, sosial layihələrin icrasına, dövlət öhdəliklərinin yerinə yetirilməsinə və digər məsələlərə daha çox vəsait lazım olacaq. Buna görə də hesab edirəm ki, hökumət var gücü ilə inflyasiyanın qarşısını almağa çalışacaq. Buna nə qədər nail olunacağını dəqiq söyləmək mümkün deyil, amma düşünürəm ki, ilin yekununda 6 faizin altında bir inflyasiya göstəricisini təmin etmək mümkündür, realdır. Yəni illik inflyasiyanın 6 faizdən yuxarı olacağını gözləmirəm. Çünki təcrübədən çıxış etsək, bir qayda olaraq dövlətin antiinflyasiya tədbirləri - istər monetar, istər fiskal baxımdan zəruri hallarda real təsirlərin əldə olunmasına imkan verir. Daha sonra müəyyən qədər məhdudlaşdırıcı tədbirlər yumşaldılır. Bu baxımdan, qarşıdakı dönəmdə - ilsonuna qədərki müddətdə bu məsələ bir qədər də kontrola götürüləcək və inflyasiyanın rəsmi proqnozlarda nəzərdə tutulan həddən 0,3-0,5 faiz bəndi xəta ilə yekun göstəricisinə nail oluna biləcək. Bu, haradasa 5,3-5,8 faizlik inflyasiya deməkdir".

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 84 (8694) 16 may 2025

May



## Vəhşi meymunlarda aşkarlanan insan vərdişləri alimləri təəccübləndirdi

**Alimlər Uqandadakı Budonqo meşəsində vəhşi şimpanzelərin unikal davranışını müşahidə ediblər: primatlar təkcə öz yaralarını dərman bitkiləri ilə müalicə etmirlər, həm də cəmiyyətin digər üzvlərinə köməklik göstərirlər. Bu kəşf "Frontiers in Ecology and Evolution" jurnalında təsvir edilib. Tədqiqat Sonso və Vaybira adlı iki şimpanze qrupunun müşahidə məlumatlarını əhatə edir. Dörd ay ərzində alimlər 41 yara sağaltma hadisəsini, o cümlədən meymunların yalnız özlərinə deyil, həm də qrupun digər üzvlərinə qulluq etdikləri yeddi hadisəni qeydə alıblar. Şimpanzelər mürəkkəb üsullardan istifadə ediblər: yaralarını yalayıb, onların üzərinə çeynənmiş yarpaqlar qoyub və bədənlərinin müxtəlif nahiyələrini, o cümlədən cinsiyyət orqanlarını bu yarpaqlarla siliblər. Meymunların "dərman siyahısında" rast gəlinən bir neçə bitki iltihabəleyhinə və ya müalicəvi xüsusiyyətlərə malikdir və ənənəvi təbabətdə istifadə olunur.**

Maraqlıdır ki, yardım yalnız qohumlara və partnyorlara deyil, genetik olaraq əlaqəsi olmayan fərdlərə də göstərilib. Tədqiqatçılar vurğulayır ki, şimpanzelərin bu davranışı onların digər fərdlərin ağrı çəkdiyini anlamaq və ağrını yüngülləşdirməyə çalışmaq qabiliyyətinə malik olduqlarını göstərir. Alimlər bu davranışın nə qədər geniş yayıldığını və hansı şəraitdə baş verdiyini müəyyən etmək üçün əlavə araşdırma aparmağı planlaşdırırlar. Lakin artıq bu da bəllidir ki, təbabətin əsasları bəşəriyyətin yaranmasından xeyli əvvəl mövcud ola bilərdi.

# ABŞ Konqresinin üç üzvü iclas zamanı yuxuya gedib




**Üç ABŞ konqresmeni Nümayəndələr Palatasının komitələrində saatlarla davam edən iclaslar zamanı yuxuya gedib. Bu barədə "Fox News" telekanalı məlumat verib. Məlumata görə, Yuta ştatından olan respublikaçı konqresmen Bleyk Mur yollar və rabitə komitəsinin, Nümayəndələr Palatasının üzvləri - 71 yaşlı Debbi Dingell və 80 yaşlı Cen Sakovski isə enerji və ticarət komitəsinin iclası zamanı yuxulayıblar. Murun həmkarları səsvermə zamanı onu oyatmalı olublar. Dingell özünə bəraət qazandırmaq üçün bildirib ki, respublikaçıların "Medicaid"in maliyyəsini kəsmək səyləri ilə mübarizə apararkən 30 saatdan çox yatmayıb. Onun sözlərinə görə, gözlərini yumub ki, hər kəsin keyfiyyətli, əlçatan səhiyyə xidmətinə çıxışının olduğu ABŞ haqqında düşünsün.**

# Övladlarına qəribə adlar verən rusiyalı ailə yenə təəccübləndirdi



**Naberejnıye Çelnıda (Rusiya Federasiyası) uşaqları üçün qeyri-adi ad seçimi ilə tanınan böyük Suxovlar ailəsi yeni doğulan oğluna Mir-Svyatomir-Vladimir adını verib. Uşaq aprelin 7-də Kazan doğum evində dünyaya gəlib. Oğlunun doğulmasından əvvəl ailə başçısı Vladimir Suxovun üç fərqli qadından 14 uşağı var idi: üçü birinci, beşi isə ikinci evlilikdən doğulub.**

V.Suxovun indiki həyat yoldaşının adı Roduşkadır. 2023-cü ildə cütlüyün Rossiya-Svyatosiya-Svyatorossiya adını verdikləri bir qızı dünyaya gəlib. Uşaqlar arasında digər adlar isə Rod-Priroda-Roduşka, Dobrınya, Svyatoslav və Slavyanidadır.



## Hamilələr bu meyvədən uzaq dursun

**Hamiləlik dövründə düzgün qidalanma yalnız ananın sağlamlığı üçün deyil, eyni zamanda körpənin gələcək inkişafı üçün də mühüm əhəmiyyət daşıyır. Finlandiyada aparılan yeni bir araşdırma hamiləlik zamanı avokado istehlakının həm ana, həm də körpə üçün allergiya riskini azaltmaqda əhəmiyyətli rol oynadığını ortaya çıxarıb. Şərqi Finlandiya Universitetinin alimləri 2013-2022-ci illər arasında 2200-dən çox ana və körpəni təqib ediblər. Araşdırma nəticələrinə görə, hamiləlik dövründə müntəzəm olaraq avokado yeyən anaların uşaqlarında bir yaşa qədər qida allergiyası inkişaf etmə riski 44 faiz daha aşağı olub.**

Dietoloq Dr. Sari Hantunen valideynlər arasında getdikcə artan qida allergiyası narahatlığını vurğulayaraq bildirib: "Qida allergiyasının hələlik qəti müalicəsi yoxdur. Ancaq bu cür tədqiqatlar gələcəkdə profilaktik tədbirlərin inkişafı baxımından çox ümidvericidir".

O, həmçinin avokadonun tərkibindəki antioksidantlar və liflərin sağlam bağırsaq mikrobiomunu dəstəklədiyini, bunun da immunitet sisteminə müsbət təsir etdiyini bildirib.

## Bunları bilirsinizmi?

* Fillərin rəngi əslində boz deyil, qızılı-torpaq rəngidir. Boz görünmələrinin səbəbi palçıqlı suların üzərilərində qurumasıdır.
* Qiymətli daşların çoxu bir neçə elementin birləşməsindən meydana gəlir, yalnız brilyant tamamilə karbondan əmələ gəlir.
* Albert Eynşteyn 9 yaşından sonra tam danışmağa başlayıb. Buna görə də ailəsi onun əqli cəhətdən qüsurlu olduğunu düşünüb.
* Çini qabları isti suyla yumaq olmaz. Bu zaman onların rəngi tez solacaq.
* Gümüş qaşıqların və ya çəngəllərin daha yaxşı parıldaması üçün onları diş pastası və naşatır spirti qatılmış su ilə yuyun.
* Küçə boyu kişi xanımdan solda getməlidir. Sağda yalnız hərbi qulluqçular gedə bilər, hansı ki, onlar da hərbi salamlaşmanı verməyə hazır olmalıdır.
* Əgər qadın büdrədisə və ya sürüşdüsə, onu dirsəyindən tutmaq lazımdır. Amma adi vaxtda kişinin qadının əlindən tutmasına qadın özü qərar verməlidir
* Qadın qarşısında kişinin siqaret çəkməsi düzgün deyil, o yalnız bunu qadından icazə aldıqdan sonra edə bilər.
* Girişdə və çıxışda kavaler xanımdan əvvəl qapını açır amma özü arxada gedir.
* Nərdivandan qalxarkən kişi öz yoldaşından 1-2 pilləkan arxada, nərdivandan enərkən isə 1-2 pilləkan qabaqda getməklə yoldaşını "sığortalamalıdır".
* Liftə girdikdə birinci kişi girməli və çıxışda isə xanım birinci çıxmalıdır.

## Tailandda dəhşətli hadisə: varan yeni doğulmuş körpəni parçaladı



**Tailandda varan (kərtənkələ növü - red.) yeni doğulmuş körpəyə hücum edib. Məlumata görə, dəhşətli hadisə Banqkok yaxınlığında yerləşən Samut Prakan əyalətində baş verib. Varanı boş ərazidə körpə qalıqlarını sürüyərkən görüblər. Hadisə yerinə polis, həkimlər və heyvanların tutulması üzrə mütəxəssislər gəlib. Onlar kərtənkələni hündür otların arasında tapıblar, lakin onu tutmaq mümkün olmayıb, sürünən hasarın altında gizlənib.**

Hadisəni xəbər verən şahid əvvəlcə kərtənkələnin ağzında tutduğunun balıq olduğunu düşünüb, lakin yaxından baxdıqda, bunun uşaq bədəni olduğunu anlayıb və kömək çağırıb. O bildirib ki, kərtənkələ cəsədin qalıqlarının bir hissəsini qonşu evin altına sürükləyib və bu da qalıqların toplanmasına çətinlik yaradıb. Cəsədin tapılan hissələri ölümün səbəblərinin müəyyən edilməsi üçün ekspertizaya göndərilib.

Polis körpənin faciədən iki gün əvvəl doğulduğunu hesab edir. Məsuliyyətə cəlb olunmaları üçün uşağın valideynləri axtarılır. Tailand qanunlarına görə, uşağın diqqətdən kənar qoyulmasına görə üç ilə qədər həbs və ya pul cəriməsi nəzərdə tutulur. Qeyd olunur ki, bölgədə yayılmış varanlar adətən balıq və ya xırda heyvanlarla qidalanır və nadir hallarda insanlara hücum edirlər.

## Avstriyada unikal əməliyyat: əl barmağın yerinə ayağın baş barmağı tikildi



**Avstriyada həkimlər fermerin əl barmağının yerinə ayağın baş barmağını tikiblər. Feldkirx Dövlət Xəstəxanasında 50 yaşlı fermerə işə qayıtmağa və peşəkar gələcəyini qorumağa imkan verən unikal tibbi əməliyyat həyata keçirilib. Fermer əl barmağını sepsis səbəbindən itirmişdi. Səkkiz saat davam edən əməliyyat regionun ən böyük xəstəxanasında ilk belə əməliyyat olub.**

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d

Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Lisenziya N: B 114

SAYI: 1.500

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.